# Dünya Bakı iqlim konfransını alqışlayır



**100-dən çox ölkədən 500-ə yaxın vətəndaş cəmiyyəti təsisatını özündə birləşdirən COP29 QHT Koalisiyası dünən yaydığı bəyanatda 29-cu iqlim konfransının yüksək səviyyəli təşkilinə görə Azərbaycan dövlətini təbrik edir, ölkəmizin COP29 Sədrliyi ilə yeni iqlim maliyyəsinin müəyyən olunması, Paris Sazişinin 6-cı maddəsinin işə salınması, İtki və Zərər Fondunun işə başlaması qərarlarının qəbulunu mühüm irəliləyiş və əhəmiyyətli uğur kimi dəyərləndirir.**

COP29 QHT Koalisiyasının bəyanatında deyilir: “Yeni iqlim maliyyəsi ilə bağlı sənəddə əksini tapmış məbləğin daha yüksək olmasını istəyərdik.

*(ardı 8-ci səhifədə)*


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 263 (30667) 29 noyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Nəbatat bağı: Yaşıl gələcəyə açılan qapı



Səhifə ⇨ 2

## COP29-a görə informasiya savaşı: udan kimdir, uduzan kim?

Səhifə ⇨ 3

## ARTE – media həyasızlığı, sivil dəyərlərə fransız şapalağı




**Fransanın anti-Azərbaycan fəaliyyətinin təzahür formaları çox genişdir. İstər fransız parlamentarilər olsun, istərsə də ölkənin ayrı-ayrı senatorları, hər birindən ölkəmizə qarşı hədyanların yağdırıldığını görmüşük. Məsələ barədə çox yazılıb, deyilib və belə görünür, qarşıdakı müddətdə də mövzu aktual olacaq. Həm də ona görə ki, rəsmi Parisin Azərbaycana münasibətindən qaynaqlanmış hərəkət və davranışlar, demək olar, hər ötən gün yeni həyasızlıq çalarları ilə zənginləşməkdədir. Əlbəttə, buna zənginləşmə demək olarsa.**

Müasir dünyamızda media amili son dərəcə vacibdir. Hazırkı dövrdə onun funksiya və vəzifələrinin hansı məqsədlər üçün istifadə edildiyi diqqətdən yayınmır. Qısa olaraq deyək ki, media, sözün əsl mənasında, silaha çevrilib. Təəssüf ki, bu silah onun mütərəqqi mahiyyətinə dəyər verməyənlərin əlindədir. Günümüzün acı reallığı da elə budur.

*(ardı 4-cü səhifədə)*

## Dudanın “missiya” lobbiçiliyi

*Yaxud Aİ-nin Ermənistandakı müşahidəçiliyi barədə*



**Əslində, Polşa Prezidenti Anjey Duda Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində keşik çəkən mülki müşahidə missiyası ilə bağlı söz-söhbətlərə aydınlıq gətirib. O, konkret hərəkəti ilə, faktiki olaraq, təsisatın müddətinin uzadılacağını təsdiqləyib. Yazıda məsələ ətrafındakı ayrı-ayrı məqamlara nəzər salacağıq.**

Əvvəlcə onu bildirək ki, Aİ-nin sərhəd missiyasının yaradılmasına 2022-ci ilin sonlarından başlanılıb və onun təşəbbüskarı Fransadır. Rəsmi Paris təsisatı formalaşdırmaqla, Qərbin Cənubi Qafqaz maraqlarını reallaşdırmaq istiqamətində əsaslı addım atıb. Hərçənd, missiyanın 2023-cü ilin fevralından başlamış fəaliyyətinə, eləcə də onun ötən ilin yekunlarına dair hesabatına diqqət yetirəndə görmək mümkündür ki, qurum gözləntiləri doğrultmayıb. Axı müşahidəçilər sərhəd zolağı boyu neçə kilometr məsafə qət etmələrindən, nə qədər maşın sürüb, hansı həcmdə yanacaq yandırmaqlarından söz açmışdılar. Belə hesabat isə qətiyyən olmaz.

Amma Aİ-nin sərhəd missiyası Qərbin Cənubi Qafqazdan başlıca tutacaq yeri kimi qalmaqdadır. Tərkibində əsasən ehtiyatda olan alman polislərinin və fransız jandarmlarının yer aldıqları müşahidəçilərdən gələcəkdə NATO missiyası düzəltmək istəkləri var. Məhz buna görə onlar, Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun təbirincə desək, bölgədəki əlavə qıcıqlandırıcılardır. Yeri gəlmişkən, onu da bildirək ki, Azərbaycan 2022-ci ildə belə bir missiyanın yalnız iki ay müddətinə, özü də məhdud say tərkibi ilə fəaliyyət göstərməsinə razılıq versə də, onu şərti sərhədin öz tərəfinə buraxmadı. Ötən müddətdə ölkəmizin rəhbərliyini mövqeyindən döndərmək istiqamətində uğursuz cəhdlər də qeydə alındı. 2024-cü ilin əvvəlində isə Azərbaycana xəbər edilmədən müşahidəçilərin regionda qalma müddəti artırıldı, habelə say tərkibi genişləndirildi.

Prezident İlham Əliyev 2024-cü il oktyabrın 14-də Belçika Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən, Bakı ilə İrəvan arasındakı sülhyaratma prosesində Aİ-yə etimadsızlıq doğuran faktorlardan biri kimi, məhz sözügedən missiyanı önə çəkmişdi. Dövlətimizin başçısı belə bir təsisatın qalmasının Azərbaycan–Aİ münasibətlərində də etimadsızlıq yaratdığını vurğulamış və əlavə etmişdi ki, 2023-cü ildə “Avropa müşahidəçilər missiyasının” müddəti ölkəmizin razılığı olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılıb. “Buna nə ehtiyac var idi?!”, – deyə ritorik sual səsləndirən dövlətimizin başçısı “Binokl diplomatiyası”nın qəbuledilməz olduğunu, normal siyasi mədəniyyət standartlarından kənarlığını bildirmiş, habelə, Azərbaycanın Aİ ilə təmaslarında bu məsələnin qaldırılacağını dilə gətirmişdi.

*(ardı 5-ci səhifədə)*

## Növbədə axırıncı kimdir?



Səhifə ⇨ 6



## Sürətlə silahlanma İrəvanı hara aparır?

Səhifə ⇨ 4

## Bakıdan Çinə ilk qatar yola salındı



Səhifə ⇨ 7

## Ağdam Sənaye Parkı ixraca başladı



**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkında məhsul ixracına başlanılıb. Sənaye parkının rezidenti “Mister Decor” MMC tərəfindən ilk dəfə Gürcüstana divar kağızları ixrac edilib. Bununla yanaşı, hazırda şirkət digər ölkələrə məhsul ixracı ilə bağlı danışıqlar aparır.**

Xatırladaq ki, Ağdam Sənaye Parkında indiyədək ümumi investisiyalarının həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən sənaye parkında, ümumilikdə, 2 min 300-ə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Ötən müddətdə sahibkarlar tərəfindən sənaye parkına 92 milyon manatdan çox investisiya yatırılıb. Bunun da hesabına parkın ərazisində fəaliyyətə başlamış 9 müəssisədə 370-dən artıq daimi iş yeri yaradılıb.

***XQ***

# Nəbatat bağı: Yaşıl gələcəyə açılan qapı

## Prezident İlham Əliyev Mərkəzi Nəbatat Bağının açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.**



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirildi ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilib, mövcud oranjereyalar əsaslı təmir edilib. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müxtəlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib.



Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.

Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat Bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək. Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib. Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib. Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

***AZƏRTAC***



## Albaniya Respublikasının Prezidenti Zati-aliləri cənab Bayram Beqaya

**Hörmətli cənab Prezident!**

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Xoş ənənələr üzərində qurulan dövlətlərarası əlaqələrimizin, qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Fəal siyasi dialoqumuz bütün sahələrdə birgə fəaliyyətimizi daha da genişləndirmək üçün yaxşı zəmin yaradır.

Son dövr ərzində həyata keçirilmiş ali səviyyəli qarşılıqlı səfərlər dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın inkişafına yeni təkan vermişdir.

Əminəm ki, Azərbaycan-Albaniya dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək, ikitərəfli və çoxtərəfli qaydada işbirliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2024-cü il**

## Mavritaniya İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məhəmməd uld Şeyx əl-Qazuaniyə

**Hörmətli cənab Prezident!**

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

COP29-da iştirak etmək üçün Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram.

İnanıram ki, Azərbaycan-Mavritaniya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2024-cü il**

## Timor-Leste Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Coze Ramuş-Hortaya

**Hörmətli cənab Prezident!**

Timor-Leste Demokratik Respublikasının milli bayramı – Müstəqilliyin Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Son dövrdə Azərbaycan ilə Timor-Leste arasında dostluq münasibətlərinin dinamik inkişafı məmnunluq doğurur. Keçən il Azərbaycana səfəriniz ikitərəfli əlaqələrimizin tarixində yeni səhifə açmışdır.

İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 20 illiyini qeyd edən Azərbaycan ilə Timor-Leste arasındakı dostluq münasibətləri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq, firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 498** **Bakı şəhəri, 26 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 242, № 5 (II kitab), maddə 612, № 9, maddə 1101) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"na aşağıdakı məzmunda 3.2.9-2-ci yarımbənd əlavə edilsin:

"3.2.9-2. yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada saxlanılır;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 499** **Bakı şəhəri, 28 noyabr 2024-cü il**

**İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 30 dekabr və 2025-ci il 3 yanvar iş günləri ilə müvafiq olaraq 2024-cü il 28 və 29 dekabr istirahət günlərinin yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 500** **Bakı şəhəri, 28 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 136 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ölkənin istehlak bazarında strateji əhəmiyyətli malların Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 aprel tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 605 (Cild I) ilə təsdiq edilmiş "Ölkənin istehlak bazarında strateji əhəmiyyətli malların Siyahısı"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# COP29-a görə informasiya savaşı: udan kimdir, uduzan kim?

**Azərbaycan COP29 Sammitində informasiya açıqlığını təmin etmək üçün mümkün olan texniki tətbiqlərin hamısından yararlandı. Yerli və beynəlxalq statuslu media subyektlərinin, qeyri-hökumət təşkilatlarının konfransda rahat iştirakı üçün bütün zəruri addımları atdı. Ev sahibi qismində yeniliklər edərək, COP29 üzrə qeydiyyata düşən jurnalistlər və QHT təmsilçiləri üçün 2024-cü ilin may-iyun aylarında Almaniyanın Bonn şəhərində seminar-treninqlər keçirdi.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin analitiki**

Mötəbər tədbir ətrafında lüzumsuz müzakirələr yaranmasın deyə, hətta fəaliyyəti mübahisə doğuran media subyektlərinin də sammitdə iştirakına şərait yaradıldı. Barəsində məhkəmə araşdırması aparılan "Toplum TV" əməkdaşları da, 2017-ci ildən etibarən yayımı məhkəmə qərarı ilə məhdudlaşdırılmış "Azadlıq" radiosunun təmsilçiləri də sammitə qatılmaq imkanı qazandılar. Məlumat üçün deyək ki, "Azadlıq" radiosunun indiki halda Azərbaycan Respublikası ərazisində fəaliyyəti legitim deyil. Baş Prokurorluq 2014-cü ildə "Azadlıq" radiosunun Bakı bürosunu vergi və maliyyə pozuntularında ittiham edib. Radionun "azadliq.org" adlı vebsaytı isə 2017-ci ilin mart ayında məhkəmə qərarı ilə bloklanıb. Prokurorluq vebsayt üzərindən ölkənin milli təhlükəsizliyini təhdid edən məlumatlar yayıldığını bildirib.

Bütün bunlara rəğmən, tipindən, siyasi təmayülündən asılı olmayaraq, Azərbaycan bütün KİV və QHT-lər üçün COP29 Sammitində bərabər iştirakçılıq şərtlərini tanıdı. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirdi ki, sammiti işıqlandırmaq üçün 200 nəfərdən çox yerli, 3000 nəfərdən çox xarici jurnalist qeydiyyata düşüb. Onların sırasında dünyanın ən məşhur media qurumları yer tutur. Məsələn, milyonlarla izləyicisi olan BBC şirkəti COP29-u işıqlandırmaq üçün özünün 20 nəfərdən çox əməkdaşını qeydə aldırıb. Digər transmilli KİV-lər də mövzuya həssas yanaşıblar. "Reuters", Deutsche Welle ( DW: dw.com ) və başqaları qısa müddət ərzində mövzu üzrə hər biri təqribən 150-dən çox xəbər və ya şərh yayıblar. Birmənalı şəkildə demək olar ki, COP29 Sammitinə öz səhifəsində yer ayırmayan transmilli və transsərhəd KİV qurumu qalmayıb.

Nəticə budur ki, COP29 Sammiti üzrə informasiyalar qlobal xəbər gündəmində trendə çevrilib. İnternet axtarışı göstərir ki, sammitin keçrilidiyi dövrdə beynəlxalq mediada mövzu üzrə hər gün 10 minlərlə məlumat paylaşılıb (şəkil 1 və 2). COP29 fonunda Azərbaycanın da adı dünyanın bir nömrəli mövzusuna çevrilib. Sammit çərçivəsində müzakirə edilən mövzular, həmçinin Azərbaycanın uğurlu ev sahibliyi barədə məqalələrin sayı minlərlədir. Qısaca qeyd edək ki, ölkəmizin adı qlobal informasiya məkanında heç zaman kəmiyyət baxımından inidiki qədər yüksək, məzmun baxımından bu qədər çoxçeşidli olmayıb.

COP29 üzrə beynəlxalq informasiya resurslarında paylaşılmış məlumatları məzmun baxımından 2 istiqamətdə təsnifatlaşdırmaq mümkündür. Birinci istiqamət sammit barədə dəqiq, obyektiv, qərəzsiz məlumatlar verən informasiya resurslarını əhatə edir. Bu tip media subyektlərinin, informasiya resurslarının sayı yüzlərlədir. Onların bir çoxu statistik informasiyalar yayıblar. Yəni, məlumatlandırma və maarifləndirmə funksiyasını icra ediblər.

Statistik məlumatların yayılmasına daha çox beynəlxalq təşkilatların informasiya resurslarında, həmçinin tədqiqat mərkəzlərinin səhifələrində təsadüf edilir. Məsələn, Birləşmiş Millətlər Təşkilatının saytında COP29 konfransının mahiyyəti, müzakirə edilən mövzular, həmçinin konfransa ev sahibliyi edən Azərbaycan Respublikası barədə məlumatlandırıcı xarakterli çoxsaylı məqalələr yerləşdirilib . Təkcə BMT deyil, digər dövlətlərarası təşkilatların, o cümlədən, Avropa İttifaqının saytında da COP29 və Azərbaycan barədə statistik məlumatlar yer alıb.

Dünyanın məşhur tədqiqat mərkəzləri, institut və universitetləri də COP29 üzrə 100-lərlə məqalə və məlumatlar yayıblar. Məsələn, öz nüfuzuna və tarixinə görə dünyada 4-cü sayılan Kembric Universiteti "What is COP29?" başlığı ilə geniş məqalə dərc edib. Orada həm COP29, həm də Azərbaycan barədə ətraflı məlumatlar açıqlanıb.

Ekoloji mövzuda tədqiqatlar aparan beynəlxalq mərkəzlərin COP29 barədə yaydıqları materialların sayı isə daha çoxdur. Bu kontekstdə İUCA (International Universities Climate Alliance) qismində birliklərin fəaliyyəti diqqət çəkir. Alyans "UN Climate Change Conference – COP29" başlığı ilə xüsusi rubrika yaradıb və bu başlıq altında 10-larca məqalə yayımlayıb. Demək olar ki, COP29 Azərbaycanın ev sahibi olaraq təqdim etdiyi modullar sayəsində tədqiqat mərkəzlərinin, beynəlxalq təşkilatların araşdırma predmetinə çevrildi. Uzun illər ərzində müzakirə ediləcək mövzu kimi tarixə düşdü.

Eyni yanaşma transsərhəd və transmilli KİV-lərin səhifələrində də müşahidə olunur. COP29 Sammitində 196 ölkədən rəsmi nümayəndə heyətləri iştirak etdi. Həmin ölkələrin media vasitələrində ən azı öz nümayəndə heyətlərinin səfərləri barədə informasiya verildiyini nəzərə alsaq, onda transsərhəd KİV-lərdə COP29 və Azərbaycan barədə nə qədər çox məlumatlandırıcı informasiyalar yayıldığını təsəvvür edə bilərik.

Yekun nəticə budur ki, Azərbaycan komandasının COP29 üzrə məlumatlandırma işi effektiv oldu. Sammitdə müzakirə olunan mövzular, Azərbaycanın ev sahibliyi üzrə peşəkar fəaliyyəti barədə zəruri informasiyalar beynəlxalq ictimai rəyə çatdırıla bildi.

Prosesin gedişində diqqət çəkən ikinci istiqamət isə COP29-un mahiyyətini kontekstdən çıxaran, onun barəsində dezinformasiya yayan media qurumlarının fəaliyyətidir. Bu sırada dünyanın aparıcı dövlətlərinə, siyasi güc mərkəzlərinə bağlı olan transmilli KİV-lər və qondarma hüquq müdafiə təşkilatları xüsusi fəallıq göstərdilər. "Washington Post"dan başlamış, CNN, "Azadlıq" Radiosu, "Deutsche Welle" (DW), "France 24", "The Guardian"a qədər ən müxtəlif media resursları şərləmə prosesində rol aldılar. "Human Rights Watch", "Amnesty international", "Freedon House", "Democracy now" qismində təşkilatlar da onlara dəstək verdilər.

Aydınlıq yaranması üçün qeyd edək ki, sadalanan media qurumlarının səhifələrində də COP29 barədə bəzən informativ, obyektiv və qərəzsiz informasiyalar yayıldı. Bu, Azərbaycan tərəfinin çevik reaksiyasına və arqumentli tələblərinə uyğun olaraq baş verdi. Amma onların prosesə ümumi yanaşmaları tendensiyalı, siyasi konyukturaya uyğun, qeyri-obyektiv və qərəzli oldu. Çox aydın şəkildə göründü ki, həm COP29, həm də Azərbaycanın ev sahibliyi barədə qondarma məlumatlar yaymaqla, beynəlxalq ictimaiyyəti çaşdırmaq istədilər.

Təcrübə göstərir ki, adı çəkilən KİV və təşkilatlar Avropanın aparıcı dövlətlərindən, siyasi mərkəzlərindən, donor institutlarından asılı vəziyyətdədirlər. Zəruri anda sifarişlə hərəkət edib hədəf ölkələrə qarşı informasiya savaşı açırlar. "Washington Post"un COP29-a yanaşması ABŞ Dövlət Departamentinin siyasətindən heç bir halda fərqlənmədi. "France 24" öz işini rəsmən Fransa Xarici İşlər Nazirliyindən aldığı təlimatlar əsasında qurur. "Deutsche Welle"nin məqalələri Almaniyanın Xarici işlər naziri Annalena Berbokun COP29-a dair məruzəsinin eynidir. Bu KİV-lər özlərini müstəqil adlandırırlar, fəaliyyətlərini "insan haqlarının müdafiəsi", "demokratiyaya dəstək" adı altında pərdələyirlər. Reallıqda isə insan haqlarını, demokratiyanı deyil, xidmətində durduqları dövlətlərin, siyasi mərkəzlərin maraqlarını qoruyurlar. Hətta ayrı-ayrı dövlətlərə bağlı olmalarına rəğmən, zəruri anda "ümumAvropa maraqları" naminə birləşib, şəbəkəyə çevrilirlər.



Biz bunu ilk dəfə 2012-ci ildə, ölkəmizdə Avroviziya mahnı müsabiqəsi keçiriləndə görmüşük. Adını sadaladığımız təşkilatlar həmin dövrdə "Azərbaycan üzrə beynəlxalq əməkdaşlıq qrupu" adlı koalisiya yaratdılar. Öz fəaliyyətlərini koordinasiya edərək, Azərbaycana qarşı haqsız bir kampaniya apardılar. Musiqi yarışmasını siyasi savaş meydanına çevirdilər. Bu gün də eyni oyunu oynayırlar. COP29-un Azərbaycanda keçiriləcəyi bilinən andan hərəkətə gəliblər. 2024-cü ilin fevral ayından etibarən, "The Baku connection" adlı koalisiya formalaşdırdılar. 50-yə yaxın "beynəlxalq KİV, QHT və hüquq müdafiə təşkilatı"nı səfərbər edərək, COP29-a qarşı qarayaxma kampaniyası apardılar.

Onların COP29 və ev sahibi qismində Azərbaycana qarşı kampaniyaları sistemlidir, koordinasiya edilir. Bu, şəksizdir, heç bir şübhə doğurmur. Amma şübhə doğuran, sual yaradan məqamlar da var. Məsələn, bu kampaniyanı nə üçün keçirdilər? Maraqları, hədəfləri nədir? Suala aydınlıq gətirmək üçün bir sıra nüanslara diqqət yetirmək lazım gəlir.

Müşahidə olundu ki, qeyd edilən qurumlar Azərbaycanın adını önə çəkməklə, əslində, fikri yayındırırlar. Reallıqda COP platformasının özünü hədəf alırlar. Onlar COP platformasının davamlı olmasını istəmirlər. Çünki COP platformasının davamlı olması, uğur qazanması sadalanan KİV və QHT-ləri bəsləyən dövlətlərin maraqlarına ziddir. Hətta ABŞ 2019-cu ildə COP-dan çıxdığını bəyan edib. Ciddi qınaqla qarşılaşdığı üçün sonradan geri dönüb. Amma COP-a geri dönsə də, platformanı dağıtmaq yönündə fəaliyyətini davam etdirib. Bunun üçün fərqli metod seçib. ABŞ və Avropa dövlətləri COP platformasını nüfuzdan salmaq üçün nəzarətlərində olan qurumlara sifarişlər veriblər. Həmin sifariş COP29 üzərində reallaşdırıldı.

BMT Ətraf Mühit Proqramı (UNEP) üzrə açıqlanan hesabatlardan aydın olur ki, mövcud iqlim böhranının yaranmasında əsas səbəblərdən biri inkişaf etmiş dövlətlərin sənaye fəaliyyətidir. Bu sırada ABŞ öncül yer tutur. UNEP-in 2024-cü il üzrə Emissiya Fərqi Hesabatında (EGR) vurğulanır ki, "Amerika Birləşmiş Ştatları qlobal Co2 emissiyalarının 20 faizinə cavabdeh olan ən böyük emitentdir. Ondan sonra hər biri 12 faiz olmaqla Çin və Avropa İttifaqı ölkələri gəlir". Siyahının yekununda görünür ki, ekoloji çirklənmənin 70 faizi inkişaf etmiş ölkələrin payına düşür.

COP platforması ekoloji tarazlığı pozan dövlətlər qarşısında öhdəliklər irəli sürür. Tələb budur ki, inkişaf etmiş dövlətlər ekoloji çirklənməyə yol açan müəssisələrin fəaliyyətini azaltsınlar. Paralel olaraq, indiyədək təbiətə vurduqları ziyan nəticəsində zərər görən ölkələrə yardım göstərsinlər. Ekoloji böhrandan əziyyət çəkən ölkələrə qrant formasında maliyyə yardımı versinlər. Düzdür, onlar bu formatda yardım göstərməyə hələ 2009-cu ildə, Kopenhagendə keçirilən COP sammiti çərçivəsində razılıq veriblər. Amma həmin razılaşma simvolik rəqəmlərlə ifadə olunur. 2020-ci ilə qədər iqlim problemlərinin həllinə 100 milyard dollar ödəməklə yaxalarını kənara çəkiblər. Bu, iqlim böhranı üzrə effektiv mübarizə aparmaq üçün yetərli rəqəm deyil. O baxımdan 2015-ci ildə keçirilən növbəti sammit zamanı maliyyə mövzusu yenidən müzakirəyə çıxarılıb. Bakıda keçirilən COP29 sammiti isə bu öhdəliklərin sərtləşdirilməsi baxımından xüsusi önəm daşıyır. Ekoloji tarazlığın bərpası üçün ödənilən vəsaitin həcmini 1,3 trilyon dollara qaldırmağı təklif edir. Bu təklif qəbul olunarsa, ABŞ, Avropa İttifaqı ölkələri vurduqları ekoloji ziyanı aradan qaldırmaq üçün külli miqdarda vəsait ödəməlidirlər. Çünki BMT-nin Çərçivə Konvensiyasına əsasən, iqlim maliyyəsi daha çox 24 ölkə tərəfindən ödənilməlidir. Bu sırada ABŞ və Avropa İttifaqı dövlətləri ön sırada gəlirlər. Onlar ya vəsait ödəməlidirlər, ya da ödənişdən boyun qaçırıb bəşəriyyətin taleyi ilə oynadıqlarını etiraf etməlidirlər. COP29 sammitinə yanaşma göstərdi ki, onlar bu iki variantın heç birini seçmirlər. Çıxış yolunu COP platformasının nüfuzdan salınmasında görürlər. Təsir dairələrində olan KİV və QHT-ləri hərəkətə gətirərək gah COP29-u, gah da ev sahibi qismində Azərbaycanı tənqid edirlər. Yuxarıda COP29-a qarşı qarayaxma kampaniyası aparan KİV və QHT-lərin, təşkilatların adlarını qeyd etdik. Diqqət etsək görərik ki, onların hamısı ya ABŞ, ya da Avropa İttifaqına daxil olan dövlətlərin ərazisində fəaliyyət göstərirlər. Məntiq deyir ki, bu KİV və QHT-lərin, təşkilatların COP29-a qarşı qarayaxma kampaniyası aparmaları həm də bu məqamdan qaynaqlanır.

Qarayaxma kampaniyası çərçivəsində diqqət çəkən digər bir nüans da var. Belə ki, COP29 Sammiti Cənubi Qafqaz üzərində geopolitik savaşın gücləndiyi, açıq müstəviyə keçdiyi bir dönəmə təsadüf edir. Qlobal Şimal ilə qlobal Cənub arasında kəskin qütbləşmə istənilən halda Qərb ilə Şərqin qovuşduğu məkan olaraq Cənubi Qafqaz mövzusunu gündəmə gətirir. Hər iki qütb bizim regionu özünün təsir dairəsində görmək istəyir. Məqsədə çatmaq üçün region dövlətlərinə təzyiq göstərir, təhdidlər yağdırırlar. Azərbaycan öz potensialından faydalanaraq, regionu bu savaşdan kənar tutmağa, bölgədə sülhü, sabitliyi qorumağa çalışır. Azərbaycan Prezidenti İlham Əliyev COP29-un Liderlər Sammitinin açılış mərasimində vurğuladı ki, Cənubi Qafqaz qlobal Cənubla qlobal Şimal arasında savaş alanı deyil. Əksinə, iki qütb arasında anlaşmaya nail olmaq üçün əlverişli məkandır. Prezident ideya olaraq irəli sürdü ki, Azərbaycan və onun yerləşdiyi region müxtəlif rakurslu beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilər.

Təbii ki, belə mövqe region üzərində məkrli planlar qurmuş geopolitik savaş oyunçularına xoş gəlmir. Azərbaycana təzyiq edirlər, ölkəmizi öz yolundan döndərməyə çalışırlar. COP29 Sammiti ilə əlaqədar aparılan informasiya savaşı həm də ölkəmizin müstəqil xarici siyasət kursuna qarşı yönəlmiş təzyiq prosesidir. Onlar Azərbaycana qarşı təkcə yalançı təbliğat aparmaqla kifayətlənmirlər. Hədə-qorxu gələrək həm də real addımlar atırlar. Məsələn, Avropa İttifaqı, Avropa Şurası, ABŞ Dövlət Departamenti müstəvisində sanksiyalar tətbiq etməklə Azərbaycanı öz siyasətindən çəkindirməyə çalışırlar. COP29 Sammitinin başlanmasına bir neçə gün qalmış ABŞ Konqresində, Avropa Parlamentində, Avropa Şurasının Parlament Assambleyasında müzakirələr açılması, Azərbaycanın insan haqları mövzusunda tənqid edilməsi, həbsdə olan "erməni əsirlərin" geri qaytarılmasının tələb olunması bu siyasətin bariz nümunəsidir.

Bakıda saxlanılan "separatçı liderlərin", "erməni əsirlərin" COP29-a nə aidiyyatı var? Onlar nə üçün məhz sammit ərəfəsində azad edilməlidirlər? AŞPA, Avropa Parlamenti, ABŞ Konqresi bu məsələlər arasında necə bağ qurur? ABŞ Dövlət Departamenti hansı məntiqlə fikirləşir ki, "COP29 ərəfəsində Bakı ilə İrəvan arasında tələm-tələsik sülh sazişi mütləq imzalanmalıdır". "Washington Post", "France 24", "Deutsche Welle" bu sualları araşdırmalı, öz sahiblərinə ünvanlamalı idilər, etmədilər. Heç bir araşdırma aparmadan Bakının üzərinə yeridilər.

Amma bu kampaniyanı aparanlar nəzərdən qaçırdılar ki, Azərbaycan artıq 20 il, 30 il öncəki durumda deyil. Onu hay-küylü kampaniyalarla hədələyib yolundan çəkindirmək mümkün deyil. Azərbaycan belə oyunları dəfələrlə ifşa edərək iflasa uğrada bilib. İndi daha güclüdür, qalib dövlətdir. Son qarayaxma kampaniyasına rəğmən, rəsmi Bakı həm özünü qorudu, həm də COP29-u uğurla yekunlaşdırdı. Bütün təzyiqlərə baxmayaraq, COP29 sammiti "Bakı Maliyyə Məqsədləri" sənədinin razılaşması ilə tamamlandı. Heç bir "separatçı lider" də azadlığa buraxılmadı.

---

Köşə

## Avropa hara gedir?



**İmran BƏDİRXANLI**
**İmranbedirxanlı01@gmail.com**

**2017-ci ilin aprel ayında Fransanın "Dreuz.info" portalında Paris yaxınlığındakı Nöyi-sür-Sen şəhəri merinin müavini Filip Karsentinin "Azərbaycan – cazibədar ölkə" adlı məqaləsi dərc olunub. Müəllif Azərbaycanın dünya dövlətləri ilə əlaqələrindən, iqtisadi inkişafından, eləcə də onun multietnik və multikultural ölkə olmasından bəhs edir. Azərbaycanın Fransanın strateji tərəfdaşı olduğunu vurğulayan müəllif ölkəmizdə yaşayan xristianların azad şəkildə kilsələrə getmələrini, yəhudilərin isə kipa ilə küçələrdə rahat gəzmələrini bildirir.**

Məqalənin çap olunduğu tarixə fikir verdinizmi? 2017-ci ilin apreli. Bəs, ötən yeddi il yarımda nə baş verdi ki, həmin Fransanın Azərbaycana münasibəti yüz səksən dərəcə dəyişdi? Təkcə Azərbaycana qarşı deyil, Türkiyəyə, bütövlükdə, İslam ölkələrinə, Şərqdən Qərbə üz tutan mühacirlərə qarşı dözümsüzlüyün, irqi, dini ayrı-seçkiliyin baş alıb getdiyi Avropanın ən "üzüqara" ölkəsi məhz Fransadır. İki il bundan əvvəl Fransa polisinin Əlcəzair əsilli yeniyetməni öldürməsi bu ölkədə nasizmin yüksələn templə irəlilədiyini tam aydınlığı ilə üzə çıxardı.

Yaxud Almaniyanı götürək. Bu ölkənin sıravi vətəndaşları arasında islamofobiya getdikcə şiddətlənməkdədir. Almaniya hökuməti bu zərərli təmayülə qarşı, faktiki olaraq, heç bir tədbir görmür. "Müsəlmanlar çirkli cinayətkarlar, təcavüzkarlar, terrorçulardır. Onlar bizim qanımızı sorurlar" – çağırışları təkcə Fransa və Almaniyada yox, Qərbi Avropanın əksər ölkələrində eşidilməkdədir.

İndiki dönəmdə Avropanın bir çox ölkəsində ifrat sağçı partiyalar parlamentdə və munisipal postlarda yerlərin əksəriyyətinə yiyələniblər. Bunu Almaniyanın timsalında aydın görmək mümkündür. Sağçı radikal ekstremistlərin klubu kimi tanınan AFD partiyası seçkilərdə Kansler Olaf Şoltsun Sosial Demokrat Partiyasına qalib gəldi. Bu faktın özü ölkənin nasist keçmişini yada salan olduqca narahatedici və təhlükəli ab-havadan xəbər verir.

Avropada nasizm qanunla qadağan edilə bilər, amma bu cür çağırışlarda onun izləri aydın sezilir. Düşünmək olardı ki, Holokost onlara bir dərs oldu və alman liderləri Avropaya üz tutan milyonlarla mühacir müsəlmanlara qarşı vaxtilə yəhudilərin məhvində dövriyyəyə buraxdıqları nifrət dolu ritorikadan istifadə etməyəcəklər. Fəqət, Almaniyada tüğyan edən islamofobiya nasizmin hələ də diri olduğunu, beyinlərdən, qandan tam təmizlənmədiyini göstərir. Doğrudanmı, nasizm bu dərəcədə həmişəyaşar və sağalmaz xəstəlikdir? Təəssüf ki, köləliyə rəvac verən antebellum (savaşqabağı durum – red.) millətçiliyi və irqçiliyi formalaşdırdığı kimi, ağ etnik xristian faşizmini də ayaqda saxlayır.

Avropa, sanki demokratiyadan, sosial ideyalardan yorulub və özünə fərqli "məşğuliyyət" axtarışına çıxıb. Sağ millətçilik dalğasının güclənməsi fonunda Avropanın siyasi siması dəyişməyə başlayıb. İstər siyasi sistemlər, istərsə də ictimai quruluş üçün ciddi risklər yaratmağa başlayan bu istiqamət klassik ailə modelinə, miqrasiya məsələlərinə qədər bütün sahələrə təsir göstərməkdədir. Avropa Parlamentinə keçirilən seçkilərdə radikal-sağ təmayüllü qüvvələrin üstünlük qazanması bu təsirin bariz nümunəsi sayıla bilər.

İndi ifrat radikallığa meyillənən, "millətçi-sağlaşmaya" yuvarlanan Avropa ölkələrinin əksəriyyətində müşahidə edilən maraqlı təmayül sol yönlü, mühafizəkar partiyaların ultra-şovinistlərlə əməkdaşlığa getməsidir. Bu proses özünü Fransa, Almaniya, Avstriya, Niderland, Polşa, Yunanıstan, İsveç və Finlandiyada bütün çılpaqlığı ilə göstərməkdədir. Yerli ekspertlərin gəldiyi qənaət budur ki, "Qoca qitə"də artıq hakimiyyətlərin nasizm qoxulu sağçılara ötürülməsi dövrü başlanıb.

Beləliklə, Avropada demokratların və solçuların mövqeləri getdikcə zəifləməyə, mühafizəkar sağçıların rolu isə yüksəlməyə doğru gedir. Radikal sağçıların hakim qüvvəyə çevrilməsi Avropanın yaxın perspektivdə sabitlik qazanacağına təminat vermir. Sıxışdırılan digər siyasi qrupların – solçular, demokratlar və hakimiyyətə iddialı bir çox təşkilatların nasizmlə mübarizəyə qalxacaqları da real görünmür.

Mövzuya nöqtə qoyacaq bir faktla yazımızı bitiririk. Dörd il bundan əvvəl İspaniya polisi qanunsuz silah alveri ilə məşğul olan quldur dəstəsinə qarşı əməliyyat zamanı gizli qərargahda "Nasizm muzeyi"ni aşkar etmişdi. Rəsmi mənbənin məlumatında deyilirdi ki, zirzəmidə nasizm dövründən qalma çox sayda əşyalar, silahlar, hərbi geyimlər, faşistlərin afişaları, habelə Hitlerin portretləri olub. Dəstə üzvlərindən biri italyan, ikisi milliyyətcə almandır. Bu da Avropanın hazırda nə ilə üzləşdiyi, yaxud hara getdiyi barədə sərlövhəyə çıxardığımız sualın cavabı...

# ARTE – media həyasızlığı, sivil dəyərlərə fransız şapalağı

*Telekanalın ermənipərəst, anti-Azərbaycan təqdimatına sözardı*



(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Fransanın anti-Azərbaycan yanaşmasında da media amilinə geniş yer verilir. “La Figaro”, “Le Monde” kimi nəşrlərdə, “Charle Hebdo” kimi karikatura qalmaqalları ilə “məşhurlaşmış” dərgilərdə, müxtəlif televiziya kanallarında ölkəmizlə bağlı həqiqətlərin təhrif olunduğunu, bəzən isə tamamilə ağ yalanların tirajlandığını görmüşük. Bu sıraya ARTE adlanan telekanal da qoşuldu. Nəinki qoşuldu, eyni zamanda, həyasızlıq baxımından özündən əvvəlkiləri geridə qoydu.

Beləliklə, ARTE telekanalı “Azərbaycanlılar və türklər iki qardaş xalqlardır və eyni vəhşilikləri törətməyə qadirdirlər” adlı sənədli film yayımlayıb. Film üçün seçilmiş ad özlüyündə hər şeyi deyir. Vurğunun nəyə qoyulduğu gün kimi aydındır. Aydındır ki, məqsəd qondarma “erməni soyqırımı” nağılına köklənməkdir. Təxminən belə: türklər ermənilərə soyqırımı müsibətini yaşadıblar. Azərbaycanlılar da türklərlə qardaş olduqlarından, eyni əməli törətməyə qadirdirlər. Göründüyü kimi, ortada belə bir mənfur təqdimat var. Amma bu, hələ yalnız bir elementdir.

Bəli, ARTE özünün sənədli filmi ilə dünyada Azərbaycan əleyhinə xof formalaşdırmağa girişib. Necə deyərlər: eyni dalğa, eyni koordinat: Ermənilər məzlumdurlar, onların müdafiəyə, qorunmağa ehtiyacları var. Bir müddət əvvəl fransız parlamentari Loran Vokyenin səsləndirdiyi fikirləri yada salaq. O demişdi ki, Ermənistan uğrunda mübarizə XXI əsrin sivilizasiyası naminə mübarizə aparmaqdır. Həqiqətən, dəhşətli durumdur. Didroların, volterlərin, russoların və digər mütəfəkkirlərin vətəni olan Fransanın parlament üzvünün XXI əsrdə Ermənistan və sivilizasiya sözlərini yanaşı işlətməsi bir qəbahətdirsə, onun sivilizasiyanı qorumaq anlayışının Ermənistanın qorunması ilə məhdudlaşması həm siyasi, həm də mənəvi kəsadlıqdır. Belə olan təqdirdə, ARTE-dən nə gözləyəsən? Sual ritorikdir, çünki telekanaldan ədalətli yanaşmadan başqa hər şey gözləmək olar.

Bəli, ARTE sözügedən sənədli filmi ərsəyə gətirib. Yaymaqla sivil media dəyərlərinə aşkar həqarət nümayiş etdirib. Telekanal söz azadlığı prinsiplərini yerdən-yerə vurub. Onun təqdimat tərzi heç bir əndazəyə sığmayan ağ yalanlardan ibarətdir. Fransada özünün tamaşaçı auditoriyasını ələ salmaq, təhqir etmək dərəcəsinin müəyyənləşdiriləcəyi sorğu keçirilsə, heç şübhəsiz, ARTE ilk pillədə qərarlaşardı.

Telekanal “xristian Ermənistan və müsəlman Azərbaycan” məntiqini qabardır. Deməli, ermənilərin qorunmasını xristian təəssübkeşliyi nöqteyi-nəzərindən “əsaslandırır”. Bu yanaşma dini təfriqə, etnik qarşıdurma yaratmaq istəyidir. Halbuki, sivil jurnalistika prinsipləri belə “dəst-xətti”n seçilməsini yasaqlayır. Əlbəttə, ARTE üçün yasaq anlayışının tamam fərqli parametrləri var. Görünür, telekanalda qadağa olan əsl həqiqətlərdən söz açmaqdır.

Onu da deyə bilərik ki, ARTE telekanalının təqdimatı təkcə peşə prinsiplərinin kobud şəkildə pozulması deyil. Fikrimizi əsaslandırmaq üçün bir məqamın üzərində dayanaq. Məlum olduğu kimi, hazırda Azərbaycan və Ermənistan arasında başlıca müzakirə mövzusu sülh gündəmidir. Kövrək də olsa, barış mühitinin müəyyən nişanələri var. Qarşılıqlı təmaslar zamanı bəzi müsbət irəliləyişlər qeydə alınıb. Dünya da prosesə diqqətlə yanaşır. Belə bir vaxtda ARTE iki xalq arasında nifrəti körükləyir.

Görünür, Fransa dövləti başda olmaqla, Cənubi Qafqaz regionunda sülhün formalaşmasını istəməyən qüvvələr hərəkətə keçiblər. Onların Ermənistan hakimiyyətinə təsirləri son dərəcə böyükdür. Belə qənaətə gəlmək mümkündür ki, rəsmi İrəvan danışıqlar prosesində hər zaman əl atdığı manipulyasiyalara yenidən üz tutacaq və müsbət dinamikanı aradan qaldıracaq. ARTE-nin təqdimatı mövcud istiqamətdə zəmin formalaşdırmaq və Ermənistana gələcək əməllərində haqq qazandırmaq cəhdidir. Bir halda ki, azərbaycanlıların vəhşi obrazı yaradılır, deməli, ölkə ilə hansısa şəkildə anlaşmaq mümkünsüzdür. Bütövlükdə, Avropa və dünya auditoriyasına aşılanan budur. ARTE sözügedən auditoriyanın erməni maraqları naminə səfərbərliyinə nail olmağa çalışır ki, rəsmi İrəvanın sülhdən yayınmasına bəraət olsun, onun rahat şəkildə yenidən təxribatlara əl atması üçün sipər formalaşsın. Heç şübhəsiz, “sifarişi” verən rəsmi Parisdir, sənədli filmin rejissorlarının və ssenari müəlliflərinin oturduqları ünvan Yelisey sarayıdır.

ARTE telekanalının yayımladığı sənədli filmin ölkəmizin media ictimaiyyətində, bütövlükdə, Azərbaycan cəmiyyətində kəskin qarşılanmasının daha bir müstəsna səbəbi var. Belə ki, materialda 1993-cü ildə Kəlbəcərin Ermənistan tərəfindən işğalı nəticəsində yerli əhalinin öz yurdlarından qovulmasına dair səhnələr əksini tapıb. Təsəvvür edin, ermənilərin məzlum kimi göstərildiyi, ümumən erməni təəssübkeşliyinin yaradılmasına hesablanmış sənədli filmdə kəlbəcərlilərin erməni cəlladlarından canlarını qurtarmaq üçün helikopter gözləmələri, gələn helikopterə minmələri və sair dəhşətli ürəkdağlayan epizodlar nümayiş olunub. Sanki öz yurd-yuvalarından didərgin salınanlar azərbaycanlılar yox, ermənilərdir. Yəni, ortada belə bir ağlagəlməz media manipulyasiyası məhsulu var. Axı Qarabağda “etnik təmizləmə” şousu aktualdır. ARTE-nin tamaşaçıları elə biləcəklər ki, yayımlanan səhnələr həmin şou ilə bağlıdır, yəni, “etnik təmizləməni” sübuta yetirir.

Sonda əvvəldə vurğuladığımız bir fikrə yenidən qayıdaq. Bəli, ARTE həyasızlıq baxımından Fransanın ermənipərəstliyi ilə fərqlənən digər media orqanlarını geridə qoyub. Əlbəttə, belə “dəstxət” telekanalı jurnalistika prinsiplərinə həqarətli yanaşma cəhətdən ön sıralara çıxarır. Həqiqətən, rəzil və miskin mənzərədir. Həm də ona görə ki, məsələ yalnız Azərbaycana yanaşmada deyil. Media dəyərlərini, jurnalistika prinsiplərini bu şəkildə ayaqlar altına atmaq mümkündürsə, deməli, demokratizmə də eyni cür yanaşmaq adi haldır. Fransa və bütövlükdə, erməni təəssübünə köklənmiş Avropa mediası və ictimai sektoru məsələ ilə əlaqədar perspektivi düşünməlidir. Düşünməlidir ki, belə hədyanların bumeranq effekti də var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# ABŞ Ermənistanın qərbyönlü partiyalarını ələ alır

*Onlar Gürcüstanın yolu ilə gedəcəyi təqdirdə Paşinyanın qarşısına çıxacaqlar*




**Son illərdə ABŞ Ermənistan üzərində təsirini artırmaqdadır. Bu, baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra daha intensiv xarakter alıb. Ermənistanın hazırkı hökuməti bütün mümkün vasitələrlə Rusiyadan uzaqlaşaraq Qərbə, ABŞ-yə yaxınlaşmaq xəttini ardıcıl davam etdirir. Bu istiqamətdə addımlar xüsusilə KTMT-yə münasibətdə daha aydın nəzərə çarpır. Ermənistan artıq bir neçə ildir ki, bu təşkilatın iclaslarına qatılmır, amma MDB-də, Avrasiya İqtisadi İttifaqında və digər qurumların işində iştirak edir.**

Budur, dünən Astanada KTMT-nin yeni sammiti öz işinə başlayıb. Amma Ermənistan əvvəlcədən elan etdiyi kimi, tədbirə qatılmayıb. Dünən baş nazirin mətbuat katibi Nazeli Baqdasaryan bildirib: “Ermənistanın baş naziri Nikol Paşinyan KTMT-nin noyabrın 28-də Astanada keçiriləcək sammitində iştirak etməyəcək”. Sammitdə iştirakdan imtinanın səbəbləri barədə danışan mətbuat katibi qeyd edib: “Ermənistan Respublikasının KTMT-nin fəaliyyətində iştirakının dondurulması ilə bağlı mövqeyi dəyişməyib”.

Lakin İrəvanın bu addımları KTMT ölkələrində birmənalı qarşılanmır. Dünən Paşinyan komandasının hərəkəti Belarus Prezidenti Aleksandr Lukaşenkonu bərk əsəbiləşdirib. O, sammitdəki çıxışında bəyan edib ki, KTMT-nin Astanada keçirilən sammitində Ermənistan nümayəndəsinin iştirak etməməsi regionda mövcud geosiyasi vəziyyəti xarakterizə edir: “Bu, regiondakı hazırkı geosiyasi vəziyyəti və müəyyən dərəcədə bizim təşkilatımızı xarakterizə edir”.

Lukaşenko hesab edir ki, KTMT Avrasiyada hərbi-siyasi sütunlardan birinə çevrilməli və bütün regional təhlükəsizlik gündəliyi üçün trend müəyyən etməlidir: “Mövcud problemlərin həllinin və effektiv təhlükəsizlik mexanizmlərinin yaradılmasının açarı müxtəlif xalqların birgə həyatı, mədəniyyətlərin və sivilizasiyaların bir-birinə nüfuz etməsinin min illik təcrübəsi olan Avrasiyamızdadır. KTMT Avrasiya qitəsinin formalaşmaqda olan təhlükəsizlik arxitekturasının hərbi-siyasi sütunlarından birinə çevrilməli, bütün regional təhlükəsizlik gündəliyi üçün tendensiya təyin etməlidir”.

Paşinyanın bir tərəfdən, KTMT-ni boykot etməsi, digər tərəfdən, Rusiya ilə bağlı başqa təşkilatların tədbirlərinə qatılması istər yaxın, istərsə də uzaq Qərb ölkələrində onun “iki stulda oturmaq istəyi” kimi qiymətləndirilir. Xüsusən Gürcüstanın son təcrübəsindən, Tbilisinin Avropa İttifaqından uzaqlaşaraq Rusiyaya yaxınlaşmasından sonra. İndi ABŞ-də Ermənistanın da Gürcüstanın yolu ilə gedəcəyindən ehtiyat edilir. Bu da Vaşinqtonu İrəvana qarşı əks addımlar atmağa vadar edir.

Bu günlərdə Rusiya tərəfinin yaydığı aşağıdakı informasiya bu məsələnin üzərinə işıq salmış oldu. Belə məlum olur ki, ABŞ Ermənistanın Qərbyönlü partiyalarını ölkədə 2026-cı ildə keçiriləcək seçkilərdə parlamentə daxil olmağa həvəsləndirərək ələ almağa, onların təbliğatı ilə məşğul olmağa başlayıb. Bu barədə noyabrın 27-də Rusiya Xarici Kəşfiyyat Xidmətinə istinadən “İzvestiya.ru” məlumat yayıb.

RF Kəşfiyyat Xidmətinin məlumatında bildirilir: “Ermənistandakı “demokratiyanın dönməz tərəfdarlarına” belə bir vəzifə tapşırılır ki, əgər Ermənistanın icra hakimiyyəti qonşu Gürcüstan hökumətindən nümunə götürərək, erməni xalqının obyektiv milli maraqlarına, adət-ənənələrinə və dəyərlərinə üstünlük vermək niyyətinə düşərsə, o zaman onun (Paşinyanın – red.) ağzından vursunlar”.

Xidmətin məlumatına görə, ABŞ Ermənistanı tamamilə özünə tabe etmək niyyətindədir. Bununla belə, oxşar təcrübələr digər ölkələrdə və regionlarda, eləcə də Yaxın Şərq, Latın Amerikası və Afrikada öz dağıdıcı mahiyyətini göstərmişdir. Bundan əlavə, Ukraynadakı mövcud vəziyyət də bunu açıq-aşkar təsdiq edir.

Məlumatda xatırladılır ki, bu ilin iyun ayında Ermənistan və ABŞ təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsinə dair saziş imzalayıblar. İyulda İrəvanda ABŞ və Ermənistan Silahlı Qüvvələrinin “Qartal tərəfdaşı - 2024” birgə hərbi təlimləri keçirilib. Daha sonra, sentyabrın 13-də ABŞ dövlət katibi Entoni Blinken və Ermənistanın baş naziri Nikol Paşinyan telefon danışığı zamanı enerji, ticarət və investisiya sahələrində ikitərəfli əlaqələrin genişləndirilməsini müzakirə ediblər. Dövlət katibi Paşinyanı ABŞ-nin Ermənistanın çiçəklənməsinə və ölkədə demokratik proseslərə dəstək verməyə çalışdığına inandıra bilib.

Sentyabrın 20-də Paşinyan ölkədə institusional islahatların həyata keçirilməsi və demokratiyanın tətbiqi üçün Vaşinqtonun dəstəyinin vacibliyindən danışaraq qeyd edib ki, bu məqsədlə ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi tərəfindən İrəvana ayrılacaq vəsaitlər artırılacaq.

Nəhayət, noyabrın 7-də ABŞ Dövlət Departamenti İrəvanın siyasi yönümünü Qərbə doğru dəyişdirməsi prosesini sürətləndirmək üçün Ermənistanın siyasi elitasına Qərbyönlü strukturların təsirini gücləndirib. Bununla da, ABŞ artıq Ukrayna və Moldovada sınaqdan keçirilmiş sxemlərdən istifadə edərək, Ermənistana Qərbyönlü inkişaf yolunu təlqin etməyə çalışır.

Bu isə Rusiya tərəfində, eləcə də KTMT-də narahatlıq və narazılıq yaradır. Odur ki, ABŞ Ermənistanın Gürcüstan təcrübəsini tətbiq etməsinin qarşısını ermənilərin öz əli ilə – müxalif partiyaların hökumətə təzyiqini gücləndirmək vasitəsilə almağa çalışır. Bunun üçün bir sıra partiyalara parlamentə düşmək şansı yaradılacağı vəd olunur. Amma yəqin ki, artıq Moskvada bu planların qarşısını almağın yolları axtarılır. Nəticəni yaşayarıq, görərik...

***Paşa ƏMİRCANOV***
***XQ***

# Sürətlə silahlanma İrəvanı hara aparır?

*Ermənistan hakimiyyəti anlamalıdır ki, heç vaxt Azərbaycanla rəqabət aparmaq gücündə olmayacaq*

**Vətən müharibəsində ordusu darmadağın olan, hava hücumundan müdafiə sistemləri məhv edilən Ermənistan indi də yeni hərbi qurğular almaq sevdasına düşüb. Bu dəfə “S-300” zenit-raket komplekslərinə göz dikib. Maraqlı odur ki, İrəvan “S-300”-ləri istehsalçı Rusiyadan yox, Yunanıstandan alacaq. Bu barədə məlumatı yunan mediası yayıb. Sülh danışıqlarının finişə yaxınlaşmağa doğru getdiyi məqamda Ermənistanın silahlanma “mesajlarının” arxasında nə gizlənir?**



Məsələyə rəsmi Moskvanın reaksiyası özünü çox gözlətmədi. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova media üçün keçirdiyi ənənəvi brifinqdə Afinanın İrəvana Rusiyanın “S-300” zenit-raket kompleksləri və daha iki silah sistemi vermək planları ilə bağlı yayılan məlumatları şərh edib. Yayılan xəbərlə tanış olduğunu və bununla bağlı 30 oktyabr 1995-ci il tarixli hərbi-texniki əməkdaşlıq və 3 dekabr 2013-cü il tarixli hərbi məhsulların tədarükünə dair ikitərəfli hökumətlərarası sazişlərin müddəalarına ciddi əməl olunmasının zəruriliyini xatırladan Rusiya XİN-in təmsilçisi deyib: “Bu sazişlər birmənalı şəkildə Yunanıstana Rusiyanın razılığı olmadan bizim təqdim etdiyimiz hərbi texnikanın təkrar ixracını qadağan edir. Amma bununla bağlı rəsmi Afinadan bizə heç bir müraciət daxil olmayıb”.



**Məsələ ilə bağlı XQ-yə açıqlama verən Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirdi ki, son zamanlar Ermənistanın sürətlə silahlandırılması prosesi gedir: “Görünür ki, bunda maraqlı olan qüvvələr var. Ermənistanın Müdafiə Nazirliyinin hərbi-texniki əməkdaşlıqla bağlı müqavilələrinin coğrafiyası getdikcə genişlənir. Bu sırada Fransa, Yunanıstan, Cənubi Koreya, Yaponiya, Hindistan və hətta ABŞ də yer alır. Müharibədə məğlub olmuş ölkənin silahlandırılması müəyyən planlardan xəbər verir. Məqsəd Ermənistan vasitəsilə bölgədə Qərbin maraqlarını təmin etməkdir. Hayların havadarı olan dövlətlər bu yolla Ermənistanı öz təsir dairələrinə salırlar. Bu da təbiidir, çünki Ermənistan heç zaman müstəqil dövlət olmayıb və müstəqil siyasət yürütməyib. Regionda marağı olan dövlətlərin buyruq quluna çevrilib”.

Ş.Ramaldanov dedi ki, bütün bu cəhdlər Ermənistanın regionda qeyri-stabilliyə səbəb olan addımlar atmasına hesablanıb: “Azərbaycan və Ermənistan arasında hələ sülh müqaviləsi imzalanmayıb, ona görə də qarşıdurmaya nail olmaq üçün bu faktorlardan istifadə etmək istəyirlər. Yəni, Ermənistanı silahlandıraraq onun revanş addımlar atmağa vadar etmək istəyən qüvvələr yetərincədir”.

Ehtiyatda olan polkovnik Ermənistanın almaq istədiyi zenit-raket kompleksi barədə məlumat verərək bildirdi ki, “S-300” keçmiş SSRİ-də istehsal edilən uzun radiuslu zenit-raket sistemidir: “Bu sistemin kütləvi istehsalına 1975-ci ildə başlanılıb. “S-300” radiolokatorlu axtarış sisteminə malik idarəetmə mərkəzindən, 6 zenit-raket kompleksindən ibarətdir. Raketlər modifikasiyasından asılı olaraq, hədəfləri 47 kilometrdən 150 kilometrə qədər məsafədə vurmaq, hava obyektlərini isə 120 kilometrdən 300 kilometrə qədər məsafədə aşkar etmək imkanına malikdir. Hədəfin məhv edilməsi yüksəkliyi maksimum 27 kilometrdir. “S-300”-ə nisbətən “S-400” və “S-500”lər daha müasir hava hücumundan müdafiə sistemləridir.

(ardı 6-cı səhifədə)

# Azərbaycanın COP zəfəri




## III MƏQALƏ

### Kollektiv dövlət identikliyində kollektivçilik

Azərbaycan Respublikasının kollektiv dövlət identikliyinə malik olduğunu yazmışıq. Bu identiklik növü dövlətin xarici siyasətdən öz identikliyini formalaşdırmaq üçün istifadə etməsi ilə yanaşı, regional və qlobal miqyasda əməkdaşlığa, kollektiv əlaqələrə üstünlük verməyə, başqa dövlətlərə hörmətlə yanaşmağa, təhlükəsizliyin təminini üstün tutmağa istiqamətlənir. Müasir mərhələdə dövlətin bu cür identikliyi mürəkkəb və təzadlı şəraitdə təmin edilməli olduğundan mahiyyətcə çətin proses sayılır.

Kollektivçilik ümumi olaraq kollektivin marağını fərdi maraqdan üstün tutmağı ifadə edir. Siyasi anlamda kollektivçilik dövlətin və cəmiyyətin maraqlarına fərdi maraqlardan daha çox üstünlük verilməsini əks etdirir. Bu anlamı dövlətlərarası münasibətlərə proyeksiya etdikdə kollektivçilik dövlətlər qrupunun ümumi maraqlarının ayrıca dövlətin maraqlarından daha üstün tutulmasını tələb edir.

Deməli, kollektivçiliyin siyasi anlamı siyasətdə münasibətlər subyektlərinin ortaq maraq və məqsədlərinin ayrı-ayrı üzv subyektlərin maraq və məqsədlərindən üstün tutulmasını ifadə edir. Bu anlamın ayrıca bir dövlətin xarici siyasət kontekstində özünü identikləşdirməsində ifadəsi də çox maraqlıdır. Burada kollektiv identikliyə malik olan dövlətin əsas olaraq başqaları ilə ortaq fəaliyyətə, əməkdaşlığa, özgə dövlətin bütün hüquqlarına hörmətlə yanaşmağa üstünlük verməsi əks olunur.

Ancaq realpolitikada meydana müəyyən çətinliklər çıxır. Çünki dövlətin başqa dövlətlərə hörmətlə yanaşması özündə siyasi, hüquqi, mənəvi, əxlaqi, mədəni, iqtisadi və digər faktorları bir-biri ilə qarşılıqlı əlaqədə nəzərə almağı tələb edir. Bu baxımdan dövlətin kollektiv identikliyi özünüdərk ilə başqalarını dərkin harmoniyası əsasında məzmun ala bilər. Bu da o deməkdir ki, reallıqda kollektiv identiklik dövlətin müxtəlif sferalarda fəaliyyətinin ierarxik strukturunu ön plana çıxarır.

Xarici siyasətdə isə onun iki səviyyəsindən bəhs etmək olar. Birincisi, dövlətin regional və beynəlxalq təşkilatların üzvü kimi kollektivçi münasibətlər qurmasıdır. İkincisi isə regional və qlobal miqyaslarda bir neçə dövlətin mürəkkəb və aktual problemin ortaq həlli ətrafında birləşməsidir (kollektiv yaratmasıdır). Aydındır ki, siyasi kollektivçiliyin bu növləri fərqli fəaliyyətlər tələb edir. Bununla yanaşı, hər hansı təşkilatda üzvlərin kollektivçiliyi ilə konkret bir problemin həllində iştirak edən dövlətlərin kollektivçiliyi arasında bir-birini tamamlaması prinsipi də olmalıdır. Politoloji aspektdə daha dərinliyə baş vurmadan COP-un bu kollektivçilikdən hansına aid olduğunu müəyyən etməyə çalışaq.

### Regional, regionlararası və qlobal kollektivçilik

Yuxarıdakı qısa təqdimatdan belə alınır ki, regional, regionlararası və qlobal miqyaslarda dövlətlərarası münasibətlərdə kollektivçiliyin fərqli əlamətləri ola bilər. Regional təşkilatlarda üzvlərin kollektivçiliyi lokal xarakterlidir. Çünki regional təşkilata üzv olan və sayı qlobal miqyasda dövlətlərin sayından kəskin az olan subyektlər arasında münasibətlərdən söhbət gedir. Onlar üçün artıq qonşu regionda yerləşən ölkələr "özgədir". Buna görə də kollektiv identiklik mahiyyətcə lokal xarakterlidir. Burada konkret regional təşkilatın üzvü üçün qonşu regionda yerləşən dövlət identiklikdən kənara çıxmadır, identiklik sərhədinin aşılmasıdır.

Bu cür təşkilatlarda regionlararası və ya qlobal problemlərin ortaq həlli məqsəd kimi qoyulmur. Əsas olaraq, konkret regiona aid olan problemlərin həllinə baxılır. Bu çərçivədə də üzv dövlətin kollektiv identiklik sərhədi müəyyən edilir.

Regionlararası miqyasda məsələyə daha geniş əhatədə baxılır və ona uyğun vəzifələr müəyyən edilir. Burada da, bütövlükdə, dünyanı narahat edən problemlərin həlli üçün kollektiv fəaliyyət yetərli deyildir. Kollektiv dövlət identikliyi regionlararası təşkilatın üzvü üçün daha geniş faktorları ehtiva edir. Dövlətin özünü digər üzv dövlətlərlə identifikasiyası çoxlu sayda parametri nəzərə almağı tələb edir. Ancaq burada da konkret məsələ üzrə kollektiv identiklik qlobal miqyası əhatə edə bilmir. Məsələn, milli təhlükəsizliyin təmini yalnız üzv dövlətlərin yerləşdikləri məkanların sərhədləri daxilində konkret məzmun və məna ala bilər.

Beynəlxalq təşkilatların üzvü kimi isə konkret dövlətin kollektiv identikliyi qlobal miqyası əhatə edir. Bu, daha mürəkkəb, ierarxik və çoxaspektli identiklik faktorlarının mövcudluğunu tələb edir. Bu səviyyədə təşkilatdaxili identikliklə ortaq problemin həlli ilə bağlı lazım olan kollektiv identiklik arasında fərqli münasibətlər meydana gəlir.

Ancaq vurğulanan kollektiv identiklik formaları üçün ümumi sayıla biləcək məqamlar da vardır. COP-a kollektivçilik növü kimi həmin prizmadan baxmaq olar.

### COP kollektivçilik növü kimi

Beləliklə, COP ortaq problemin həlli üçün yaradılan kollektivçilik növüdür. Bu problem münasibətlərdə olan ölkələrin sayına görə bütün dünyanı əhatə edir. Problemin təsir dairəsi, kollektivçiliyin sərhədi isə Yer kürəsini və Kosmosu əhatə edir. COP elə qlobal problemdir ki, həlli üçün bütün dünya dövlətlərinin dövlət identikliyi nəzərə alınmalıdır. Bu, olduqca mürəkkəb və dolaşıq mənzərədir və həmin səbəbdən COP-un iqlim dəyişikliyini həll etməsi uzaq perspektivin işi kimi görünür. Bu həllə aparan yolda isə konstruktiv rolu kollektiv dövlət identikliyi oynaya bilər. Deməli, real olaraq iqlim dəyişikliyini həll etmək dövlətlərin kollektiv identiklik növünə keçməsi gərəkdir! Bu isə sifariş və ya istəklə olmur. Çünki hər bir dövlətin özünəməxsus identiklik tarixi vardır və onun keyfiyyətcə dəyişməsi imkansız görünür.

Bura böyük dövlət ənənəsi olan ölkələri də əlavə edəndə daha mürəkkəb vəziyyət yaranır. Ona görə ki, özlərini daha güclü sayan, beynəlxalq təşkilatlarda dominant mövqe tutan, imtiyazlı statusa malik dövlətlər özlərinin identikliklərini dəyişməkdə qətiyyən maraqlı deyillər. Buradan COP səviyyəsində qlobal problemlərin həllində paradoks yaranır. Bir tərəfdən iqlim bütövlükdə dünyaya aiddir və ondan kimsə sığortalanmamışdır, digər tərəfdən isə reallıqda bir sıra dövlətlər adət etdikləri identikliklərdən imtina edə bilmirlər. Konkret olaraq, onlar realpolitikada kollektivçi ola bilmirlər.

Yalnız kollektiv identiklik praktikası olan dövlətlər həqiqi mənada iqlim dəyişikliyinin bəşəriyyətin xeyrinə həllində maraqlıdırlar. Azərbaycan nümunədir.

### Azərbaycanın kollektivçilik təcrübəsi

Biz COP kontekstində Azərbaycanın fəaliyyətinə 3 təşkilatın – Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və BMT çərçivəsində kollektiv identiklik kontekstində baxacağıq. Burada COP miqyasında İƏT qismən, QH ondan çox dərəcədə, BMT isə tam olaraq kollektiv identiklik xüsusiyyətlərinə malikdir. Azərbaycanın da bu təşkilatların hər birində kollektivçilik aspektində özünəməxsus təcrübəsi vardır.

### İƏT

Azərbaycan 1991-ci ildən İslam Əməkdaşlıq Təşkilatının (2011-ci ilə qədər "İslam Konfransı Təşkilatı" adlanırdı) üzvü kimi müsəlman dövlətlərin həmrəyliyi, sülhün, barışın təmini və terrora qarşı mübarizə üzrə xeyli təcrübə toplamışdır. Azərbaycan artıq 33 ildir ki, həmin təşkilat çərçivəsində müxtəlif layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bunun nəticəsidir ki, qısa müddətdə ölkəmiz İƏT-in nüfuzlu dövlətlərindən birinə çevrilib. Bu, Azərbaycanın məhz təşkilatdaxili kollektivçiliyə verdiyi real töhfələr fonunda tamamilə məntiqidir. Eyni zamanda, Azərbaycanın İƏT çərçivəsində kollektiçilik fəlsəfəsinin müəyyən sərhədləri vardır. Həmin sərhədlər müsəlman ölkələrinin kollektiv identikliyi və ayrıca, ortaq problemlərin həllində kollektiv fəaliyyətin prinsiplərinə əməl etməklə müəyyən olunur.

Bununla yanaşı, COP aspektində İƏT təcrübəsinin maraqlı və əhəmiyyətli bir özəlliyi mövcuddur. Həmin özəllik Azərbaycanın müstəqil dövlət kimi kollektiv dövlət identikliyinin konkret regional, mədəni və dini mənsubluğun hüdudunu aşaraq, bütövlükdə, dünya üçün mənası və əhəmiyyəti olan faktorlar (problemlər, məsələlər və s.) üzrə beynəlxalq təcrübə qazanması ilə bağlıdır. Məsələn, İƏT çərçivəsində bu istiqamət özündə üç sferanı ehtiva edir.

Birincisi, eyni dinə malik cəmiyyətlərin kollektiv identiklik təcrübəsinin formalaşması.

İkincisi, İƏT üzv olan dövlətlərin təşkilatdaxili mühitdə kollektivçilik fəlsəfəsinin formalaşması.

Üçüncüsü, bütövlükdə müsəlman dünyası üçün aktual olan problemlərin İƏT prizmasında həllində kollektiv identikliyin real göstəricilərinin formalaşması.

Nümunə üçün iki məsələni vurğulaya bilərik. Onlardan biri rəsmi Bakının diplomatik məharətinin çox gözəl təsdiqidir. Azərbaycan diplomatiyası uğurlu fəaliyyəti ilə Qarabağ məsələsini İƏT-in ən aktual problemlərindən biri kimi qəbul etməsinə nail oldu. Bununla əvvəllər fraqmentar və laqeyd münasibət göstərdikliləri bir problemi İƏT təşkilat olaraq daxili identikliyinin aktual faktorlarından biri kimi qəbul etdi.

Digər nümunə yenə də əsas olaraq Azərbaycanın fəallığı ilə beynəlxalq terrorizmə qarşı mübarizənin İƏT-in kollektiv fəaliyyətnin çox mühüm bir parametrinə çevrilməsidir. Əhəmiyyətlidir ki, Azərbaycan tərəfi bu məsələni iki aspektin sintezində reallaşdıra bilmişdir. Onlardan biri İslamın din olaraq real obrazının qarşı tərəfə qəbul etdirilməsi, digəri isə erməni terrorunun əsl simasını göstərməklə müsəlmanlara atılan terrorçu böhtanlarının arxasında müəyyən dairələrin Azərbaycan dövlətçiliyini və müstəqilliyini yox etməyin dayandığını nümayiş etdirməklə əlaqəlidir.

Bununla Azərbaycanın İƏT təcrübəsi kollektiv dövlət identikliyi baxımından iki mühüm məsələni həll etdi. Birincisi, Azərbaycan Ermənistanın təcavüzünə haqq qazandırmağa çalışanların dindən süni istifadə cəhdlərini neytrallaşdırdı. İkincisi, Azərbaycanın bir müsəlman ölkəsi kimi hüquqa, ədalətə, beynəlxalq münasibətlərin şərtlərinə dəqiq əməl edən sivil dövlət olduğunu sübuta yetirdi.

İƏT faktiki olaraq Azərbaycanın kollektiv dövlət identikliyində hüquq, din, mədəniyyət və sivillik kimi parametrlərin müasir demokratik, layiq və sülhsevər dövlətçiliyində önəmli yer tutduqlarını nümayiş etdirmək platformasıdır.

Buradan Azərbaycanın COP kimi tədbirləri təşkil etməsinə sivillik, bəşərilik, mədəniyyətə və dini əsaslara malik olması nəticəsi çıxarılır. Həmin təcrübə COP kontekstində Qoşulmama Hərəkatı və BMT-də toplanan təcrübə ilə bir-birini tamamlayır və ümumi pozitiv mənzərə yaradır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*MVXQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Dudanın "missiya" lobbiçiliyi

**(əvvəli 1-ci səhifədə)**

Bəli, hazırda Polşa Prezidenti A.Duda Qərbin "Binokl diplomatiya"sının təmsilçisi rolunda çıxış etməkdədir. Noyabrın 28-də Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilonun ölkəmizin Xarici İşlər Nazirliyinə çağırılmasının səbəbi də elə budur. Hər halda, dövlət başçısı statusunda olan şəxs Ermənistan hakimiyyətinin şərti sərhədə apardığı yararsız diplomatlardan deyil. Dudanın bölgədə görünməsi regiondakı qıcıqlandırıcılıq üçün ciddi motivdir. Buna görə də M.Qreçilonun nəzərinə çatdırılıb ki, Polşa Prezidentinin Ermənistan – Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Aİ-nin Ermənistandakı missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirakı yolverilməzdir. Eyni zamanda bildirilib ki, sözügedən missiya regional sabitlik, həmçinin Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunur. Belədə, Dudanın müşahidəçilərin ortamına düşməsi Azərbaycan – Polşa münasibətlərinə ziddir. Ölkəmizin baş xarici siyasət idarəsi hesab edib ki, Varşavanın Bakının legitim təhlükəsizlik maraqlarına təsir edən bu kimi addımlardan çəkinməsi zəruridir.





Qeyd edək ki, rəsmi Bakı bu ilin sentyabrından başlayaraq Aİ-nin missiyasına qarşı çıxdığını, müvafiq olaraq, həm də onun müddətinin uzadılmasına etiraz etdiyini açıqlamaqdadır. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev demişdi ki, hazırda iki dövlət arasında nizamlama prosesinin sülh, qarşılıqlı anlaşma şəraitindəki gedişatı var. Bu səbəbdən Aİ-nin sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur, təsisatın işinə xitam verilməsinin zamanı yetişib.

Lakin belə görünür ki, Qərb aləmi Aİ-nin missiyasının fəaliyyətinə xitam vermək istəmir. Bunu Polşa Prezidenti A.Dudanın dünənki açıqlaması da təsdiqləməkdədir. O bildirib ki, ölkəsi müşahidəçilərin tərkibindəki nümayəndələrinin sayını artırmağı nəzərdən keçirir. Yəni, tərkibdə polşalılar da var imiş. Bir qədər əvvəl isə missiyada alman polislərinin və fransız jandramlarının təmsilçiliyindən söz açdıq. Sən demə, təsisatda əsl internasional ab-hava hökm sürürmüş. Yəqin, bu səbəbdən ona NATO-nun qruplaşması kimi baxırlar.

Onu da diqqətə çatdıraq ki, Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqos bir müddət əvvəl Azərbaycanın təmsil etdiyi təşkilata qarşı sözügedən missiya ilə əlaqədar ittihamlarına cavab verərkən demişdi ki, guya, təsisat insanların təhlükəsizliyini gücləndirmək üçün əla iş görür. "Əla iş"in nə demək olduğu məlum deyil. Hər halda, şərti sərhəd zolağı boyu pikap avtomobillərlə yol gedib-gəlmək iş sayıla bilməz.

Söhbət Polşa Prezidentindən düşmüşkən, bildirək ki, Aİ-nin Ermənistandakı missiyasının rəhbəri Markus Ritterin müşaviri Dudanın həmyerlisi Marek Kuberskidir. Kuberski bir müddət əvvəl müşahidəçilərin mandatının uzadılması ilə bağlı belə demişdi: "Biz bunun üzərində işləyirik. Brüsseldəki tərəfdaşlarımız qərarı bütün Aİ ölkələrinin paytaxtları ilə məsləhətləşərək hazırlayır. Çünki qərar ittifaqın 27 üzvü tərəfindən qəbul ediləcək. Biz artıq Ermənistan hakimiyyəti ilə, Ermənistanın vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələr aparmışıq. Beləliklə, indi bölgədə qalacağımızla bağlı qərar verilir".

Sonda qeyd edək ki, Ermənistanda səfərdə olmuş Polşa Prezidentinin istər Aİ-nin müşahidə missiyasının düşərgəsinə baş çəkməsi, istərsə də sonra verdiyi açıqlama onu göstərir ki, Aİ müşahidəçilərin şərti sərhəddə qalma müddəti uzadılacaq. Hətta, bəlkə uzadılıb da. Sadəcə, mövzunun, guya, müzakirə olunduğu görüntüsü yaradılır, ona sanki fundamentallıq gətirilir. Buna razılıq verən isə rəsmi İrəvandır. Deməli, Ermənistan hakimiyyəti qarşıdakı müddətdə Azərbaycanla sülhə gəlmək fikrində deyil və əvvəllər olduğu kimi, yenə Aİ missiyasını özünün təxribatçı əməlləri naminə sipər saymaqdadır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# "SAT-SAS-2024" təlimində




**Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimində növbəti tapşırıqlar icra olunub. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Təlimin planına əsasən, hər iki ölkənin dəniz xüsusi təyinatlı bölmələri kustar üsullarla hazırlanmış partlayıcıların təhlükəsizlik tədbirləri nəzərə alınmaqla zərərsizləşdirilməsi, həmçinin şərti düşmənin hədəf gəmisinə sualtı gizli yaxınlaşaraq xüsusi dəniz minalarının quraşdırılması üzrə tapşırıqları yerinə yetiriblər.

Birgə təlimdə əsas diqqət hərbi qulluqçuların nəzəri biliklərinin artırılmasına, praktiki vərdişlərinin təkmilləşdirilməsinə, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına yönəldilib.

*XQ*

# Növbədə axırıncı kimdir?

## *Zəngəzurda konsulluq açmaq istəyən dövlətlərin sayı durmadan artır*



**İkinci Qarabağ müharibəsinin ölkəmizin parlaq qələbəsi ilə başa çatmasından sonra gündəmə gələn məsələlərdən biri də regionda nəqliyyat kommunikasiyalarının açılmasıdır. Məlumdur ki, bu məsələ elə müharibənin başa çatmasını nəzərdə tutan 2020-ci il noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında imzalanan üçtərəfli Bəyanatda öz əksini tapıb. Bəyanatın 9-cu bəndində açıq-aydın yazılıb ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.**

Bəyanatda nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanlarının həyata keçirəcəyi də qeyd edlib. Həmçinin bildirilib ki, tərəflərin razılığı əsasında Naxçıvan MR-lə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Ermənistan tərəfi müharibənin başa çatmasından ötən dörd il ərzində öz öhdəliyini yerinə yetirmir. Yəni, regionda kommunikasiyaların, başqa sözlə, Zəngəzur dəhlizinin açılmasından imtina edir. Baş nazir Nikol Paşinyanın öz imzasına hörmət qoyması üçün heç kəs ona güldən ağır söz demir. Buna baxmayaraq, İrəvana havadarlıq edən bəzi ölkələr 2021-2023-cü illərdə Azərbaycanın bu bölgəyə silahlı müdaxilə edəcəyi ilə bağlı yalanlar tirajladılar. Onlar bu bölgədə varlıqlarını göstərmək üçün Zəngəzurda (haylar bu qədim yurd yerimizi "Sünik" adlandırırlar–S.H.) tələm-tələsik baş konsulluq açmaq sevdasına düşdülər. Bu prosesdə, İran, necə deyərlər, hamıdan erkən tərpəndi. 2022-ci il oktyabrın 21-də Zəngəzur vilayətini inzibati mərkəzi olan Qafan şəhərində baş konsulluq açdı. Açılış mərasimində Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və onun iranlı həmkarı Hüseyn Əmir Abdullahian iştirak etdilər.

Yeri gəlmişkən, qeyd edək ki, açılış mərasiminin görüntüləri sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olmuşdu. Yayılan fotolarda konsulluğun yerləşdiyi binanın hələ tam olaraq təmirdən çıxmadığı aydın görünürdü. Diqqəti cəlb edən digər məqam isə açılış mərasimində çəkilən görüntülərdə nazirlərin konsulluqda yaradılan şəraitlə tanış olmaması idi. Bəzi istifadəçilər bunu konsulluğun kabinetlərinin tam təmir olunmaması ilə əlaqələndirmişdilər. Konsulluğun fotolarına baxdıqda da, onun diplomatik nümayəndəlikdən daha çox ictimai iaşə obyektinə bənzədiyini aydın görmək olardı.

İranın ardınca Fransa Qafanda baş konsulluq açmaq qərarını açıqladı. Ölkənin sabiq xarici işlər naziri Ketrin Kolonna 2023-cü ilin sentyabrında ölkəsinin belə bir planı olduğunu bəyan etdi. "Biz Ermənistanla müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmişik. Fransa səfirliyində xüsusi hərbi attaşe olacaq. Tezliklə sərhəddə yerləşən Sünik bölgəsində konsulluq açacağıq" – deyə Kolonna Milli Assambleyanın iclasında deputatların Parisin "erməniləri qorumaq üçün" hansı addımlar atması ilə bağlı suala cavab olaraq bildirdi.

Bölgədə baş konsulluq açmaq istəyən ölkələrdən biri də Rusiyadır. Qafanda Rusiya baş konsulluğunun açılması barədə 2023-cü il mayın sonunda Rusiya Xarici İşlər Nazirliyinin MDB Ölkələri üzrə Departamenti direktorunun müavini Sergey Paltov məlumat verdi. Onun sözlərinə görə, mayın 25-də Moskvada Nikol Paşinyan və Vladimir Putin arasında keçirilən görüş zamanı Ermənistan tərəfi bu təşəbbüsü bəyəndi.

Buna baxmayaraq, Rusiyanın istəyi hələlik reallaşmayıb. İki gün öncə – noyabrın 27-də keçirdiyi ənənəvi mətbuat konfransında Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiya baş konsulluğun açılmasının vaxtı ilə bağlı sualı da cavablandırıb. Deyib ki, Ermənistan buna prinsipial olaraq razılıq verib: "Rusiya Ermənistan xarici işlər nazirliyindən Sünik vilayətindəki konsulunun tanınmasını xahiş edib. Biz buna müvafiq cavab gözləyirik. Bu məsələni dəfələrlə şərh etmişik. Təəssüf ki, vəziyyət dəyişməyib. Ermənistan tərəfinin cavabı gecikdirməsinin səbəbi ilə bağlı sual Moskvaya ünvanlanmamalıdır".

Göründüyü kimi, Rusiya bu addımı atmaqda israrlıdır. Ermənistan XİN başçısı 2023-cü il oktyabrında kanadalı həmkarı Melani Coli ilə İrəvanda keçirdiyi mətbuat konfransında bildirmişdi ki, digər ölkələr də Zəngəzurda diplomatik nümayəndəliklər açmaq istəyirlər. Gümün etmək olar ki, bu dövlətlərdən biri də Kanada olacaq. Üstəlik, Avropa İttifaqnın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərə zidd olaraq, ölkəmiz əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunduğu misiyası da Zəngəzurda sərhədboyu aşağı-yuxarı gəzib dolaşmaqdadır.

Bu dövlətlər İrəvanın haray-həşir salmasına və Qərb mediasında "Azərbaycan Zəngəzuru ələ keçirəcək" tipli yazılara elə inanıblar ki, konsulluq vasitəsilə buna mane olacaqları qənaətindədirlər. Halbuki, İran ərazisindən Naxçıvana alternativ yolun çəkilişinə başlanılmasından sonra rəsmi Bakının Zəngəzur dəhlizinə marağı azalıb. Ermənistan ərazisinə müdaxilə etmək planımız isə heç əvvəldən olmayıb. Aydın olur ki, bu ölkələr baş konsulluq açmaqla boşuna pul xərcləyəcəklər. İllər ötəndən sonra isə onları bağlamaq məcburiyyətində qalacaqlar. Çünki konsulluq xidmətlərinin məqsədi həmin ərazilərdə yaşayan müvafiq ölkənin vətəndaşlarına xidmət etməkdir. Məgər, Fransanın, yaxud Rusiyanın Zəngəzurda baş konsulluğuna müraciət edəcək qədər vətəndaşı var?! Eyni sözü İranla bağlı da demək mümkündür. İran vətəndaşlarına İrəvandakı səfirliyin konsulluq şöbəsinin xidmət göstərməsi məgər kifayət etmir? Beləliklə, Qafanda konsulluq açılması ilə bağlı, necə deyərlər, yarışa çıxan ölkələrin bunu siyasi səbəblərdən etdikləri bir daha öz təsdiqini tapır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin rəhbəri, Azərbaycanın Kanada və Çexiyadakı sabiq səfiri Fərid Şəfiyev** də bildirdi ki, bəzi ölkələrin Qafanda baş konsulluq açmaq qərarı tamamilə siyasi məsələdir.



Onun sözlərinə görə, çünki adları çəkilən ölkələrin həmin bölgədə nə iqtisadi, nə də digər maraqları var: "Ümumiyyətlə, Zəngəzur vilayətində əhalinin sayı da çox deyil. Orada 100-150 min arasında əhali yaşayır. Bölgədə hansısa inkişaf da yoxdur. Adətən, baş konsulluq ölkələr arasında iri iqtisadi layihələr icra ediləndə açılır. Yaxud, bunun üçün zəruri şərt orada müvafiq ölkənin vətəndaşlarının yaşamasıdır. Çünki onlara konsulluq xidmətlərinin göstərilməsi lazımdır. Məsələn, Rusiyanın Sankt-Peterburq və Yekaterinburq kimi şəhərlərində bizim baş konsulluğumuz var. Çünki orada xeyli sayda Azərbaycan vətəndaşı yaşayır və işləyir. Həmçinin, bu şəhərlərdə bizim böyük diasporumuz var. İstanbulda da Azərbaycan baş konsulluğu fəaliyyət göstərir. Türkiyənin paytaxtı Ankara olsa da, elmi, iqtisadi–biznes və sair cəhətdən əsas mərkəz İstanbuldur. Ölkələrin baş konsulluq açmaları üçün digər belə nümunələr var. Aydındır ki, Zəngəzurda nəyin olub, nəyin olmadığını biz bilirik. Bu, Zəngəzur dəhlizi məsələsi ilə bağlı sırf Ermənistana siyasi dəstək göstərmək məqsədini daşıyır".

F.Şəfiyev qeyd etdi ki, Rusiyanın Qafanda baş konsulluq açmaq istəyi də məsələlərə siyasi cəhətdən nəzarət etmək istəyindən irəli gəlir. Ermənistanın bu prosesi gecikdirməsinin səbəbi ilə bağlı mövqeyini bölüşən mərkəz rəhbəri açıqlamasının davamında bildirdi: "Maraqlı sualdır. Biz bilirik ki, Ermənistanla Rusiya arasında siyasi münasibətlərdə müəyyən soyuqluq var. Ermənistan hökuməti Qərbə göstərmək istəyir ki, onların Rusiya ilə münasibətləri soyuqdur. Halbuki iqtisadi əlaqələr sahəsində heç bir soyuqlaşmadan söhbət gedə bilməz. Əlaqələr tam gücü ilə inkişaf edir, ticarət dövriyyəsinin həcmi ilbəil artır. Bu da Paşinyan hökumətinin Qərbə göstərmək istədiyi bir oyundur. Rusiya təkid etsə, baş konsulluq açılacaq".

Rusiyanın Cənubi Qafqazdakı maraqlarına gəldikdə isə mərkəz rəhbəri bu maraqların 250-300 ildir formalaşdığını və hamıya aydın olduğunu vurğuladı: "Düzdür, müəyyən təsirlər, taktiki dəyişikliklər var. Amma strateji cəhətdən heç nə dəyişməyib. Buna görə də onlar Zəngəzurda baş konsulluq açmaqda maraqlıdırlar".

**Politoloq Ramiyə Məmmədova** isə bildirdi ki, müxtəlif ölkələrin Qafanda baş konsulluq açmaq istəyi Ermənistana ve-



rilən dəstəyin göstəricisidir. Onun fikrincə, məqsəd İrəvanın özünü təhlükəsiz hiss etməsinə yönəlib. Halbuki, Ermənistanın özünü təhlükədə hiss etməsi üçün heç bir əsas yoxdur.

Müsahibimiz qeyd etdi ki, əsas məsələlərdən biri də Zəngəzur dəhlizi məsələsidir: "İran dəhlizin açılmasına qarşıdır. Tehran bu mühüm geosiyasi bölgədə özünün varlığını gözə soxmaq istəyir. Ancaq onlar konsulluq açanda bunu iqtisadi və nəqliyyat-logistika məsələsi ilə əlaqələndirmişdilər. Bildirmişdilər ki, İran vətəndaşlarının Ermənistana gedib-gəlişi üçün Qafanda baş konsulluğun açılması lazımdır".

R.Məmmədova dedi ki, eyni zamanda, Rusiya bölgədə nəzarəti Qərbə verməmək üçün baş konsulluq açmaq niyyətinə düşdü. Həmçinin Fransa da Ermənistanın "ərazi bütövlüyünün qorunması üçün" belə bir addım atdı: "Ancaq hələlik nə Rusiya, nə də Fransa bu istəyini həyata keçirə bilib. Ermənistan baş konsulluğun açılması məqsədilə praktiki işlərə başlaması üçün Rusiyaya müsbət cavab verməyib. Bu isə Moskvanı narahat edir. Paytaxt İrəvandakı səfirliklə yanaşı, Gümrü şəhərində Rusiya baş konsulluğu fəaliyyət göstərir. Bunun da səbəbi Gümrüdə Rusiyanın 102 saylı hərbi hissəsinin yerləşməsidir. Konsulluq onlara müxtəlif xidmətlər göstərir. Onlar Rusiya vətəndaşları kimi səsvermə günü baş konsulluqda yaradılan seçki məntəqələrində səs verirlər. Bu baxımdan Gümrüdə baş konsulluğun olması anlaşılandır. Amma Ermənistanın getdikcə daha Qərbyönümlü olması Rusiyanı ölkənin müxtəlif şəhərlərində, o cümlədən Qafanda baş konsulluq açmağa vadar edir. Rusiya Ermənistanı Qərbdən uzaqlaşdırmağa, Qərb isə Ermənistanı özünə yaxınlaşdırmaqla Rusiyadan uzaqlaşdırmağa çalışır".

Siyasi şərhçi onu da bildirdi ki, biz Cənubi Qafqaz regionunda Qərbin, NATO-nun Rusiyaya qarşı əməllərini görürük. Qərb bölgədə sabitliyin bərqərar olmaması üçün əlindən gələni edir. Baş konsulluqların açılması da Qərbin həm Rusiyaya, həm də İrana qarşı həmləsidir.

*Səxavət HƏMİD*
*XQ*

# Polşanın müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırılıb



**Noyabrın 28-də Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilo Xarici İşlər Nazirliyinə çağırılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Dudanın Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək Avropa İttifaqının Ermənistandakı missiyası ilə birgə ölkəmiz əleyhinə təbliğatda iştirakına etiraz bildirilib.

Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunduğu xatırlanıb.

Bu təxribatın Azərbaycan-Polşa münasibətlərinə zidd olduğu, Azərbaycanın legitim təhlükəsizlik maraqlarına təsir edən bu kimi addımlardan çəkinməyin zəruriliyi diqqətə çatdırılıb.

**XQ**

# Yunanıstan Ermənistanı mübaribəyə təhrik edir

**Qərbi Azərbaycan İcması Yunanıstanın Ermənistanı silahlandırması ilə bağlı bəyanat yayıb.**



Sənəddə deyilir: "Mətbuatda Yunanıstan tərəfindən Ermənistana müasir silah sistemlərinin verilməsi ilə bağlı xəbərlər yayılıb. Bütün bunlar regiondankənar aktorların Ermənistanı silahlandırmaq, Cənubi Qafqazı geosiyasi rəqabət meydanına çevirmək siyasətinin tərkib hissəsidir. Biz Qərbi azərbaycanlıları öz dədə-baba yurdlarımızdan didərgin salmış, 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamış, hələ də Konstitusiyasında ölkəmizə qarşı ərazi iddiasını davam etdirən təcavüzkar bir ölkənin silahlandırılması yolverilməzdir.

QAİ Yunanıstanı məsələlərə etnik və dini təəssübkeşlik prizmasından baxmamağa və regionda vəziyyəti gərginləşdirən təhlükəli addımlardan çəkinməyə çağırır".

**(əvvəli 4-cü səhifədə)**

Ermənistanın bu zenit-raket sistemini almaq istəməsinin bir neçə səbəbi var. Ən vacib səbəb Azərbaycanın 44 günlük Vətən müharibəsində Ermənistanın hava hücumundan müdafiə sistemlərini darmadağın etməsidir. Ermənistanın bu qədər silahlanması region üçün yaxşı heç nə vəd etmir. Bu, təkcə Azərbaycanın deyil, bölgədəki qonşu ölkələri də narahat etməli, buna qarşı müəyyən addımlar atılmalıdır. Biz



# Sürətlə silahlanma İrəvanı hara aparır?

gözləməməliyik ki, Ermənistan nə zaman silahlanar və onu silahlandıran qüvvələrin sifarişini yerinə yetirərək, Azərbaycana qarşı hansısa irimiqyaslı təxribata cəhd edər. Sülh müqaviləsi imzalanmayıb, müharibə şəraitindəyik, şərti sərhədimiz var. Hərbi dillə desək, bu, təmas xəttidir. Belə olduğu halda Azərbaycanın təhlükəsizliyi baxımından hər hansı addımı atmağa hüquqi baxımdan ixtiyarı var. Prezident İlham Əliyev deyib ki, əgər Azərbaycana qarşı istər revanşist qüvvələr tərəfindən, istər Ermənistan dövləti, istərsə də onun havadarları tərəfindən hansısa təhlükə yaranarsa dərhal cavabı veriləcəkdir".

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** sualımıza cavabında bildirdi ki, Ermənistanı silahlandıra bilməsi üçün Yunanıstanın özü də hər hansı bir silah sisteminə malik olmalıdır: "Afina silahların çoxunu xaricdən alır. Demək olar ki, özü bu istiqamətdə istehsalçı deyil. Ona görə bu ölkədə silah tədarükü ilə bağlı məsələ ciddi şəkildə Ermənistan ordusunu gücləndirməsə də, öz-özlüyündə bu alverin olması müəyyən müzakirələrə meydan açır. Fransa və Hindistandan fərqli olaraq, Yunanıstan Azərbaycandan təbii qaz alır, həm də müəyyən mənada Azərbaycan təbii qazının Avropada şaxələndirilməsində iştirak edir. Ona görə də rəsmi Afina Cənubi Qafqaz, Azərbaycan ilə bağlı proseslərə yanaşmada ehtiyatlı mövqe ortaya qoymalıdır. Yunanıstan Türkiyə ilə münasibətlərə görə Ermənistanla əlaqələrin inkişafında həmişə maraqlı olub və erməni faktorundan geniş istifadə etməkdədir".

Zaur Məmmədovun sözlərinə görə, Cənubi Qafqazda cərəyan edən hadisələrdən danışılırsa, bu təhdidlər təkcə Ermənistan tərəfindən deyil, eyni zamanda, digər qonşu ölkələr tərəfindən də ola bilər. Bütün hallarda Azərbaycan təhlükəsizliyinin etibarlı əllərdə olduğuna tam əmindir. O ölkələr narahat olmalıdır ki, apardıqları destruktiv siyasət onlar üçün neqativ nəticələrə gətirib çıxara bilər".

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 8-də Bakıda Zəfər Parkının açılışında bayram münasibətilə Azərbaycan xalqını təbrik edərkən demişdir: "İkinci Qarabağ müharibəsinin, antiterror əməliyyatının nəticələri, hesab edirəm ki, Ermənistanın bu günə qədər düzgün addımlar atması üçün kifayətdir. Ancaq bir məsələ var, onu da biz unutmamalıyıq ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə Cənubi Qafqazda ara qarışsın, yenə qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır. Mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır. Hələ ki, gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar".

Əlbəttə, bu sözlər Ermənistan üçün nəticə çıxarmağa, yaxşı düşünməyə son şans sayılmalıdır. Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın deyil, həm də onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir. "Təkrar biliyin anasıdır" deyirlər. Bu atalar sözünü sınamağa dəyər. Tarix bunun doğruluğunu dəfələrlə sübuta yetirib.

*Azər MUSTAFAYEV*

# Sağlam rəqabət bolluq və keyfiyyətə meydan açır



**Məlum olduğu kimi, 2023-cü ilin dekabr ayında Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi Milli Məclisdə üçüncü oxunuşda qəbul edilib. Bu il yanvarın 23-də isə Prezident İlham Əliyev Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Qanunu təsdiqləyib.**

Ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edən sənəd ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarının müəyyən edilməsinə imkan yaradıb. Bununla yanaşı, istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını özündə ehtiva edən Rəqabət Məcəlləsi ölkədə azad sahibkarlığın inkişafı, iqtisadiyyatda inhisarçılığın tamamilə aradan qaldırılması və süni maneələrin götürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Cari ilin yanvar–oktyabr aylarında ölkəmizdə Rəqabət Məcəlləsinin tətbiqi ilə bazar subyektlərinin maneəsiz və səmərəli fəaliyyətinin təmin edilməsi, liberal bazar münasibətlərinin inkişafının dəstəklənməsi, o cümlədən ölkədə rəqabət siyasətinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən məlumat verilib.

Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən hazırlanmış məlumatda bildirilir ki, 2024-cü ilin 10 ayı ərzində ölkədə rəqabət intizamının qorunması və inhisarçı davranışlarla mübarizə istiqamətində bazarda hökmran mövqe və nisbətən yüksək bazar gücündən sui-istifadə hərəkətləri ilə rəqabətin məhdudlaşdırılmasına yol verilməsi üzrə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən, ümumilikdə, 146 müraciətə baxılıb, onlardan 87-si təmin olunub. Eyni zamanda, antidempinq, kompensasiya və mühafizə tədbirlərinin tətbiqi ilə bağlı daxil olmuş 21 müraciətdən 16-sı müsbət həllini tapıb. Hesabat dövründə iqtisadi təmərküzləşmə əməliyyatları üzrə baxılmış 61 müraciətdən 33-ü, rəqabət qanunvericiliyinə riayət olunmasına nəzarət üzrə baxılmış digər 48 müraciətin isə 28-i təmin edilib.

Bazara giriş maneələri, təmərküzləşmə səviyyəsi, kartel tipli əlaqələr, dempinqli idxalın müəyyən edilməsi və qarşısının alınması məqsədilə bir sıra əmtəə bazarlarında – maliyyə xidmətləri, mobil telefonların satışı bazarında rəqabət vəziyyətinin təhlil edilməsinə dair tədbirlər həyata keçirilib. Rəqabət qanunvericiliyə riayət olunması üzrə araşdırmalar aparılıb və müvafiq bazarlarda məhsul növləri müəyyən edilib.

Hesabat dövründə Dövlət Xidməti tərəfindən rəqabətpozucu davranışlarla mübarizə istiqamətində istehlakçıların seçmə sərbəstliyinə təsir göstərən və sahibkarların rəqabət imkanlarını məhdudlaşdıran haqsız, qeyri-dəqiq və gizli reklam üsullarından istifadənin qarşısının alınmasına yönəlmiş tənzimləyici tədbirlər həyata keçirilib. Dövlət Xidmətinin məlumatına əsasən, ilin əvvəlindən qanunsuz reklamların yayımı ilə əlaqədar baxılmış 98 müraciətin 58-i təmin olunub. Mal və xidmətlərdən istifadə edərkən istehlakçı seçimlərini stimullaşdıran reklam fəaliyyəti üzrə həyata keçirilən tədbirlər çərçivəsində alkoqollu içkilər, ət məhsulları, tütün və tütün məmulatları, körpələr və erkən yaşlı uşaqlar üçün süni qida məhsulları, nəqliyyat vasitələri, bank, kredit, təhsil, logistika, karqo və ictimai iaşə xidmətləri sahəsində, ümumilikdə, 29 bazar subyekti tərəfindən reklam qanunvericiliyinin tələblərinin pozulması halları müəyyən edilib. Aşkar edilən pozuntular görülmüş tədbirlər nəticəsində könüllü aradan qaldırılıb.

Cari ilin 10 ayında Dövlət Xidmətində pozuntu hallarının qarşısının alınması və rəqabət tənzimləmələri istiqamətində bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi barədə 130 müraciətə baxılıb. Rəqibin üzərində əsassız üstünlük qazanmaq, onun təsərrüfat qərarlarının qəbuluna və icrasına qanunsuz vasitələrlə təsir göstərməklə haqsız rəqabətə yolverə əlamətləri üzrə Dövlət Xidməti tərəfindən 1, digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri üzrə isə 3 iş qaldırılıb, 9 işə (5-i ötən ildən davam edən) baxılması başa çatdırılıb. Görülmüş tədbirlər nəticəsində təsərrüfat subyekti tərəfindən yol verilmiş pozuntular aradan qaldırılıb.

Rəqabətli biznes mühitinin təmin olunmasını, bazar subyektlərinin rəqiblərinə qarşı ədalətli davranışını və rəqabət qanunvericiliyinə riayəti təşviq edən tədbirlər çərçivəsində haqsız rəqabətə yolvermə ilə əlaqədar baxılması başa çatmış işlər üzrə 5 bazar subyektinə 189,7 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib və icrasına məcburi göstəriş verilib. Bundan əlavə, digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri üzrə Dövlət Xidmətinə daxil olmuş müraciətlər zamanı görülmüş tədbirlər nəticəsində 23 bazar subyekti tərəfindən neqativ hallar könüllü aradan qaldırılıb.

Bu ilin yanvar–oktyabr aylarında təbii inhisar subyektlərinin azad rəqabətə və müştəri mənafeyinə mənfi təsir göstərə bilən hərəkətlərinin qarşısının alınması və aradan qaldırılması istiqamətində qanunvericiliyin tələblərinə uyğun tənzimləyici tədbirlər həyata keçirilib, müvafiq sahədə bərabər, şəffaf, ədalətli və rəqabətə əsaslanan münasibətlərin formalaşmasının təmin edilməsinə dair tələblər təbii inhisar subyektlərinin diqqətinə çatdırılıb.

Hesabat dövründə Dövlət Xidməti tərəfindən görülmüş tədbirlər nəticəsində təbii inhisar subyektlərinin göstərdiyi xidmətlərlə əlaqədar 1156 müraciətə baxılıb. Həmin müraciətlərin 292-si təmin olunub, 550 halda qanunamüvafiq izahat və tövsiyə, 116 halda rəy və təklif verilib. Müraciətlərin 28-i baxılması üçün aidiyyəti orqana göndərilib, 3 halda aidiyyəti üzrə müraciət etmələri tövsiyə olunub, 1 halda zəruri sənədlər təqdim edilmədiyindən baxılması dayandırılıb. Hazırda 166 müraciət üzrə araşdırmalar davam etdirilir.

Xatırladaq ki, ilin əvvəlindən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə daxil olan vətəndaş müraciətləri, əsasən, kommunal, hava yolu nəqliyyatı, dəmir yolu nəqliyyatı, suvarma (meliorasiya və irriqasiya), poçt xidmətləri və digər sahələri əhatə edib.

**Hazırda ölkəmizdə təxminən 40 Latviya şirkəti fəaliyyət göstərir. Bu fikri Bakıda keçirilmiş "Azərbaycan – Latviya informasiya və şəbəkə görüşü" mövzusunda keçirilən tədbirdə Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev səsləndirib. Onun sözlərinə görə, ikitərəfli əlaqələrin gücləndirilməsi, eləcə də ticarət dövriyyəsinin genişləndirilməsi və şirkətlərin fəaliyyətinin genişləndirilməsi sayəsində bu göstəricini daha da artırmaq mümkündür.**

# "Azərbaycan – Latviya informasiya və şəbəkə görüşü"

Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi və Latviya Ticarət və Sənaye Palatası 2025-ci ildə əməkdaşlıq razılaşması imzalamağı planlaşdırır. Bu barədə məlumat verən AZPROMO-nun icraçı direktoru deyib ki, Azərbaycan və Latviya arasındakı mövcud əlaqələr, tarixi ənənələr, xüsusilə də ixrac-idxal göstəriciləri baxımından ölkələrimizin potensialını tam əks etdirmir. Bu istiqamətdə ciddi işlərin görülməsinin vacibliyini vurğulayan Y. Abdullayevin sözlərinə görə, şəbəkələşmə və əlaqələrin qurulması istiqamətində keçirilən tədbirlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır.




Tədbir çərçivəsində Latviya Ticarət və Sənaye Palatası ilə 2025-ci ildə razılaşma imzalanması barədə razılıq əldə olunduğunu diqqətə çatdıran AZPROMO rəhbəri deyib ki, bu razılaşma çərçivəsində əməkdaşlıq istiqamətlərini müəyyən edən tədbirlər planı hazırlanacaq. Onun sözlərinə görə, tədbirlər planına Latviya şirkətlərinin Azərbaycana və Azərbaycan şirkətlərinin Latviyaya cəlb olunması, hər iki ölkənin iqtisadiyyatlarının inkişafı və ixrac-idxal əməliyyatlarının artırılması kimi məsələlər daxildir. Bununla yanaşı, iki ölkə arasında investisiyaların stimullaşdırılması, texnologiyaların transferi və təcrübə mübadiləsi də mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, bu ilin yanvar–oktyabr aylarında Azərbaycanla Latviya arasında ticarət dövriyyəsinin həcmi 22 milyon 943 min ABŞ dolları təşkil edib. Bunun da 4 milyon 806 min dolları ixracın, 18 milyon 137 min dolları isə idxalın payına düşüb. Hesabat dövründə Azərbaycanın Baltikyanı ölkədən idxal etdiyi əsas məhsullar ayran, çürümüş qatıq və qaymaq, kefir və digər qıcqırdılmış süd və qaymaq, konservləşdirilmiş balıq, tərkibində dad-aromatik və ya boyaq əlavələri olan şəkər siropları, benzin və dərman vasitələrindən ibarət olub. Ölkəmizdən isə Latviyaya meşə fındığı, qara metallardan qeyri-elektrik havaqızdırıcıları, hava və qaz kompressorları, ventilyasiya qurğuları, inersiyasız su qızdırıcıları və ya istilik su akkumulyatorları, meşə materialları ixrac olunub.

Xatırladaq ki, gələn ilin I yarısında Bakıda Azərbaycan və Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasının keçirilməsi planlaşdırılır. Komissiyanın 8-ci iclası 20 may 2022-ci ildə Riqada keçirilib. Komissiyanın Azərbaycan tərəfdən həmsədri ekologiya və təbii sərvətlər naziridir.

AZPROMO və Latviya Ticarət və Sənaye Palatasının birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan – Latviya informasiya və şəbəkə görüşü"ndə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, İKT, təhsil, sənaye, logistika, tikinti materiallarının istehsalı və digər sahələri təmsil edən şirkət nümayəndələri iştirak ediblər. Bununla yanaşı, biznes subyektləri arasında tanışlıq məqsədi daşıyan tədbirə iki ölkənin 20-dən artıq şirkət də qatılıb. Görüşdə Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti və Azərbaycan Banklar Assosiasiyasının nümayəndələri təqdimatlarla çıxış ediblər.

# Bakıdan Çinə ilk qatar yola salındı



**Bu yaxınlarda Azərbaycan – Çin ticarət əlaqələri tarixində ilk dəfə olaraq ixrac yükləri Bakıdan dəmir yolu nəqliyyatı ilə Çinə yola salınıb. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin məlumatına görə, bu hadisə iki ölkə arasındakı iqtisadi və nəqliyyat əlaqələrinin yeni mərhələyə qədəm qoyması ilə yanaşı, həm də Azərbaycanın beynəlxalq yükdaşımalar sahəsindəki strateji rolunu daha da möhkəmləndirdiyini nümayiş etdirir.**

Belə ki, Orta Dəhliz beynəlxalq nəqliyyat marşrutu ilə Çindən Azərbaycana tranzit və idxal yüklərinin göndərilməsi ilə yanaşı, əks istiqamətə ixrac yüklərinin çatdırılması bu dəhlizin səmərəliliyini daha da artırır. Orta Dəhlizin sürətlə inkişafı istər Şərq-Qərb, istərsə də Qərb-Şərq istiqamətində yükdaşımaların həcminin artırılmasına təkan verir. İlk ixrac qatarının yola salınma mərasimində Azərbaycan və Qazaxıstan dəmir yollarının yüksək nümayəndə heyəti, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu katibliyinin rəhbərliyi ilə yanaşı, Çinin Sian Çanba Beynəlxalq Limanının İdarəetmə Komitəsinin rəhbər şəxsləri də iştirak ediblər.

Qeyd edək ki, "Bakı – Sian" ilk ixrac blok qatarı 62 ədəd 40 futluq konteynerdən ibarətdir. Bu yük multimodal olaraq Qazaxıstan üzərindən Çinin ən böyük quru limanlarından biri olan Siana çatdırılacaq. Cari ilin sonunadək layihə çərçivəsində ilkin olaraq, ümumilikdə, 15 min ton, yəni 600 konteyner ixrac yükünün sözügedən marşrut ilə Çinə göndərilməsi planlaşdırılır.

Çin Xalq Respublikasından Azərbaycan istiqamətinə 280 konteyner blok qatarı isə bu ilin əvvəlində yola salınıb. İlin sonuna kimi Uzaq Şərq ölkəsindən Azərbaycana bu marşrut üzrə 300-dən çox konteyner blok qatarının göndərilməsi nəzərdə tutulub. Gələn il üçün isə blok qatar sayının 3 dəfədən çox artırılaraq 1000-ə çatdırılması planlaşdırılır.

# Fermerlərə yeni subsidiyalar veriləcək



**Aqrar Subsidiya Şurası məhsul subsidiyası verilən bitkilərin siyahısını genişləndirir. Şuranın qərarına əsasən, 2025-ci təsərrüfat ilindən başlayaraq fermerlər qarğıdalı əkinlərinə görə, əkin subsidiyası ilə yanaşı məhsul subsidiyası da ala biləcəklər. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, qarğıdalıya görə məhsul subsidiyası qarğıdalıdan nişasta, qlükoza, yağ və fruktoza istehsal edən müəssisələrə verilən məhsula şamil edəcək. Özünə məxsus torpaq sahəsində qarğıdalı yetişdirən və məhsulu belə müəssisələrə təhvil verən fermerlər əkin subsidiyası ilə yanaşı, təhvil verdikləri qarğıdalının hər tonuna görə 50 manat məhsul subsidiyası alacaqlar.

Yeri gəlmişkən, indiyə qədər Azərbaycanda yalnız pambıq, şəkər çuğunduru və tütünə görə məhsul subsidiyası verilirdi. Aqrar Subsidiya Şurası növbəti təsərrüfat ilindən qeyd olunan bitkilərlə yanaşı, qarğıdalıya görə də məhsul subsidiyası ödənilməsini qərarlaşdırıb. Şuranın qərarında məhsul subsidiyası ödəniləcək bitkilər siyahısında pambıq, şəkər çuğunduru, tütün və qarğıdalıdan başqa günəbaxan və soyanın da adları var.

Xatırladaq ki, əvvəllər qarğıdalı əkinlərinə görə subsidiya yalnız əkin və təkrar əkinə görə ödənilirdi. 2025-ci təsərrüfat ilində də qarğıdalı əkən fermerlər məhsul subsidiyasından başqa əkin və təkrar əkin subsidiyaları alacaqlar. Aqrar Subsidiya Şurasının qərarına əsasən, gələn il müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə qarğıdalı becərilməsinə üçün fermerlərə hər hektara görə 290 manat, müasir suvarma sistemləri quraşdırılmamış qarğıdalı sahələrinə görə isə hər hektara 230 manat əkin subsidiyası ödəniləcək. Təkrar qarğıdalı əkinlərinə görə isə fermerlərə hər hektar üçün 120 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

# "Bərgüşadçay" dənizə qayıtdı

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda inşa edilən "Bərgüşadçay" yedək gəmisi istismara verilib. Gəmi Xəzər Dəniz Neft Donanmasının balansına verilib. Bu barədə XQ-yə ASCO-dan məlumat verilib.**



Bildirilib ki, uzunluğu 24,72 metr, eni 6,60 metr, bortunun hündürlüyü 3 metr olan gəminin suya oturumu 1,6 metr, dedveyti isə 14 ton təşkil edir. "Bərgüşadçay" yedək gəmisi 9 uzel sürətlə hərəkət edə və göyərtəsində 3 tonadək yük daşıya biləcək. Təmir zamanı gəmidə rabitə və elektroradionaviqasiya sahəsinə aid müasir avadanlıqlar quraşdırılıb. Buraya stasionar VHF radiostansiyası, qəza radiomayakı, radiolokasiya cavabvericiləri, əl radiostansiyaları, avtomatik identifikasiya sistemi, komanda yayım qurğusu, maqnit kompası və radiolokasiya stansiyası daxildir. Gəminin layihəsi isə ASCO "Mühəndislik" MMC-nin əməkdaşları tərəfindən hazırlanıb.

Xatırladaq ki, "Zığ" Gəmi Təmiri və Tikintisi zavodunda peşəkar gəmi təmiri və dəniz mühəndisliyi xidmətləri ilə yanaşı, 2017-ci ildən etibarən müvafiq sertifikatlaşdırma əsasında müxtəlif növ su nəqliyyatı vasitələrinin tikintisi də həyata keçirilir.

# Qızıl xəzinəmiz zənginləşir

**Bu ilin yanvar–oktyabr aylarında Azərbaycanda 2 min 167,1 ton qızıl istehsal edilib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 35,9 ton və ya 1,7 faiz artım deməkdir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, noyabr ayının 1-nə hazır məhsul ehtiyatı 390,3 ton təşkil edib ki, bu da illik müqayisədə 102,5 ton və ya 35,6 faiz çoxdur. Xatırladaq ki, ötən ilin eyni dövründə hazır qızıl ehtiyatı 287,8 ton olub.

Cari ilin 9 ayının nəticələrinə əsasən Azərbaycandan İsveçrəyə 115 milyon 265,3 min dollar dəyərində 2 min 902 ton qızıl ixrac edilib. Xarici ölkələrdən isə, ümumilikdə, 1 milyard 833,9 milyon dollar dəyərində 23 min 859 tona yaxın qızıl idxal edilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Bir qədər əvvəl başa çatmış 29-cu iqlim sessiyasının əsas məqsədi qlobal istiləşmənin qarşısının alınması, ekosistemin balansının qorunması istiqamətində növbəti tədbirlərin müəyyənləşdirilməsi idi. Bu hədəfi gerçəkləşdirmək üçün neytral iqlim, resurs qənaətli və qapalı təsərrüfat dövriyyəli dayanıqlı "yaşıl" iqtisadiyyata keçidi sürətləndirmək üzv dövlətlər qarşısında mühüm vəzifə kimi qoyulmuşdu. Konfransda istər iqlim dəyikliyinə, istərsə də ətraf mühitin çirklənməsinə təsir edən tullantıların yaratdığı mənfi təsirlərin qarşısının alınması əsas müzakirə mövzularından biri idi.**

# Tullantılar və təmiz gələcək

**ETN İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Bikəs Ağayevin redaksiyamıza təqdim etdiyi materialda da bu barədə ətraflı bəhs edilir:**

– Tarix boyu insanların fəaliyyət dairəsinin genişlənməsi və iş intensivliyinin yüksəlməsi, nəhayət, biosferanın yeni keyfiyyət halına düşməsi ilə nəticələnib. Başqa sözlə, bəşəriyyət tarixini iqtisadi inkişaf və ardıcıl qaydada biosferanın – ekosistemin dağıdılması tarixi kimi qiymətləndirmək olar. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, əgər XX əsrin əvvəllərində ümumdünya məhsulunun illik həcmi, təxminən, 60 milyard ABŞ dolları həcmində idisə, 2023 ildə dünya iqtisadiyyatı bu qədər məhsulu 2,2 saatdan daha az vaxtda istehsal edib. Belə ki, 2023-cü ildə ümumdünya məhsulunun həcmi 105 trilyon dollara çatıb, yəni 120 ildə dünya təsərrüfat sistemi 4 min dəfə artıb.

Burada əsas məsələ odur ki, sözügedən dövrdə dünyada yanacaq-istilik balansının strukturu kəskin şəkildə dəyişib: əgər həmin vaxt istilik-enerji mənbəyi kimi əsasən odun və kömür istifadə edilirdisə, hazırda bu məqsədlə neft-qaz (70 faiz), atom (9,2 faiz), su və alternativ-bərpaolunan (15 faiz) və digər enerji mənbələri hesabına enerji istehlakı 14 dəfə artıb. Son onilliklərdə ilk dəfə olaraq dünya energetikasının artım tempinin əhali artımını üstələməsi faktı qeydə alınıb. Nəticə etibarilə sivilizasiyanın inkişaf tempi və istilik mənbəyi kimi karbohidrogenlərdən istifadə tempinin artımı Yerdə texnogen yaşayış mühitinin yaranmasına, təbii ehtiyatların tükənməsinə, ətraf mühitin insan sağlamlığı üçün təhlükəli həddə çirklənməsinə səbəb olub.

BMT-nin Ətraf Mühit Proqramı təşkilatının hesablamalarına görə, hazırda atmosfer havasının çirklənməsi və onun yaratdığı fəsadlar insan sağlamlığı və planetimiz üçün ciddi təhlükədir: dünya əhalisinin 90 faizdən çoxu yol verilən normadan artıq çirklənmiş hava ilə nəfəs alır və hər il bu səbəbdən 8 milyondan artıq insan ölür. Havanın çirklənməsi insanların sağlamlığı üçün təhlükə yaratmaqla bərabər, ətraf mühitə də ciddi ziyan vurur: okean və digər su hövzələrinin oksigen generasiyasının və karbon qazının udma qabiliyyətinin azalmasına səbəb olmaqla biomüxtəlifliyi azaldır, iqlim dəyişikliyini sürətləndirir.

Dünyanın bəzi lokal ərazilərində ətraf mühitin çirklənməsi o həddə çatıb ki, biosferin özünü təmizləmə (bərpaetmə) xüsusiyyəti xeyli zəifləyib və ya tamamilə məhv edilib. Görkəmli alim V.İ. Vernadskinin qənaətinə görə, qlobal iqtisadiyyat mahiyyətcə tullantı istehsalı sistemidir. Belə ki, dünya üzrə istehsal prosesində yaranan tullantıların çəkisi bilavasitə alınan məhsulların ümumi çəkisindən xeyli çoxdur, əldə olunan məhsullar isə sonraya saxlanılan tullantılardır, yəni gec-tez onlar da istehlak xüsusiyyətlərini itirib tullantı halına düşəcək. Məsələn, dünyada dağ-mədən sahələri üzrə hər il adambaşına 60 ton (cəmi 500 milyard ton) mineral-xammal çıxarılır. Bu kütlənin 90-95 faizi bərk, maye və qaz halında tullantı kimi atılır ki, bunun da adambaşına düşən 0,1 tonu təhlükəlidir. Ümumiyyətlə, Dünya Bankının qiymətləndirməsinə görə, dünyada gün ərzində adambaşına əmələ gələn tullantıların miqdarı ölkələr üzrə geniş intervalda (0,11-4,5 kiloqram) dəyişir və orta hesabla 0,75 kiloqram həddində (ildə cəmi 2 trilyon ton) qeydə alınır.

Keçən əsrin 60-70-ci illərindən başlayaraq alimlər və dünya ictimaiyyəti birmənalı olaraq belə bir ideyanı qəbul etdilər ki, maddə və enerjinin qlobal zəncirvari dövrü səbəbindən dünya coğrafiyası vahid təbiət kompleksi halında təşəkkül tapıb. Buna görə də insanların fəaliyyəti nəticəsində yaranan ətraf mühit problemləri "qlobal ekoloji problemlər" termini ilə adlandırılmağa başlanıb. Yəni, bu problemlər, istisna olmadan bütün dünya ölkələrinə aiddir və həlli birgə əməkdaşlıq və səy tələb edir. Hazırda bu problemlər sırasına, əsasən, aşağıdakılar daxil edilir: Yer iqliminin dəyişməsi və ozon qatının dağılması, ətraf mühitin və hava hövzəsinin çirklənməsi, içməli su ehtiyatlarının tükənməsi və okean sularının çirklənməsi, bioloji müxtəlifliyin azalması, meşələrin qırılması və səhralaşma, tullantılar və s.

BMT-nin Təbiəti Mühafizə Komissiyasının "Bizim ümumi gələcəyimiz" adlı konseptual sənədinin tərkib hissəsi olan "Dayanıqlı inkişaf konsepsiyası"nda qeyd edilir ki, bəşəriyyətin gələcək inkişafı hazırda üzləşdiyimiz qlobal problemlərin bilavasitə həllindən asılı olacaq. Bu proqram sənədində tullantılar problemi də ekosistem üçün yaratdığı potensial təhlükəyə görə qlobal problemlər sırasına daxil edilib.



Avropa Birliyinin beynəlxalq standart kimi qəbul edilən "Tullantılar haqqında" direktivində tullantılara "sahibinin atdığı (tulladığı), atmaq istədiyi və ya atmalı olduğu istənilən maddə və obyekt" kimi tərif verilir. Tərkibindəki maddə və birləşmələrə, idarə edilməsi proseslərinin xüsusiyyətlərinə görə, tullantılar məişət, istehsalat, elektron, tibbi və kənd təsərrüfatı tullantıları və s. müxtəlif siniflərə təsnif edilir.

Tullantılar lazımi qaydada ilkin və təkrar emal (ümumi halda, utilizasiya) edilmədikdə insan sağlamlığı və ətraf mühit üçün ciddi təhlükə mənbəyinə çevrilir. Burada "lazımi qaydada utilizasiya edilmədikdə" ifadəsi altında əsasən tullantıların idarə edilməsi ilə bağlı aşağıda qeyd edilən utilizasiya üsulları nəzərdə tutulur. Belə ki, tullantılar adətən tullantı poliqonlarına atılır və açıq səma altında qalır. Bu halda tullantılar atmosfer havası, günəş şüaları, yağıntı, külək və s. kimi təbii təsirlər nəticəsində fiziki aşınır, tərkib hissələrindəki maddə və materiallar bu amillərin təsiri ilə və ya öz aralarında qarşılıqlı kimyəvi reaksiyaya girərək qaz, maye və bərk aqreqat halında olan ziyanlı birləşmələr yaranır.

Çürümə nəticəsində yaranan və xüsusilə istilikxana effekti yaradan metan, karbon qazı, azot oksidləri və s birləşmələrin yer səthindəki konsentrasiyasının artması atmosferin təbii istilik balansını (təbii istilikxana effektini) pozur, Yerin təbii hərarətini daha çox dərəcədə "tutub saxlamaqla" izafi istilikxana effekti, başqa sözlə, iqlim dəyişməsi və ya qlobal istiləşmə yaradır. Generasiya edilən zəhərli qazlar səmt küləyi vasitəsilə uzaq məsafələrə yayılaraq yaşayış məntəqələrinin ekoloji mühitini pisləşdirməklə əhalinin sağlamlığına ziyanlı təsir göstərir, onların müxtəlif xəstəliklərlə yoluxma ehtimalını artırır.

# "Yaşıl" iqtisadiyyata 5 önəmli töhfə

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində İqtisadiyyat Nazirliyinin təşkil etdiyi tədbirlər zamanı "yaşıl" iqtisadiyyata töhfə verən 5 razılaşma imzalanıb.**




Qurumdan redaksiyamıza verilən məlumata görə, iqtisadiyyat, rəqəmsal inkişaf və nəqliyyat, maliyyə nazirlikləri, eləcə də BYD, "SARDA Group" və "Electrify Azerbaijan" şirkətlərinin nümayəndələri tərəfindən ölkədə elektrik avtobus istehsalının lokallaşdırılması layihəsi üzrə müqavilə imzalanıb. Müqaviləyə əsasən, layihə çərçivəsində Azərbaycanda elektrik avtobusların istehsalının qurulması və ehtiyat hissələrinin lokallaşdırılması, 2030-cu ilə qədər mərhələli şəkildə lokallaşma səviyyəsinin 40 faizə çatdırılması nəzərdə tutulur.

Azərbaycan İnvestisiya Şirkəti ilə Türkiyənin "Dias Bilişim ve Teknoloji Hizmetleri A.Ş." şirkəti arasında "Depozit idarəetmə sistemi" layihəsi üzrə Anlaşma Memorandumu imzalanıb. Bu əməkdaşlıq nəticəsində ölkəmizdə plastik və şüşə qabların toplanması və depozit idarəetmə sisteminin təşkili nəzərdə tutulub.

Böyük Britaniyanın "Carbonbit Technologies" müəssisəsi Azərbaycan İnvestisiya Şirkəti arasında karbon texnologiyalarının inkişafı və kommersiyalaşdırılması sahəsində birgə iş məqsədilə Anlaşma Memorandumu Azərbaycanda karbon texnologiyalarının inkişafını hədəfləyir.

Digər Anlaşma Memorandumu Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" və BP-nin törəmə şirkəti "Volts" arasında imzalanıb. Sənəd respublikamızda enerji batareyası istehsalı müəssisəsinin yaradılmasına dəstək verilməsini nəzərdə tutur.

COP29 çərçivəsində AİŞ, "SOCAR Downstream" və "Technip Energies Italy S.P.A" tərəfindən yaradılan "Ecostar" MMC-nin nizamnaməsi imzalanıb. "Ecostar" MMC "Alterra" piroliz texnologiyasına əsaslanan "Tullantıların monetizasiyası" layihəsinə dair ön mühəndislik layihələndirməsi həyata keçirəcək və plastik tullantı materiallarından yararlanmaqla piroliz yağı istehsal edəcək.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşəbbüsü ilə qlobal səviyyədə kiçik və orta bizneslərin (KOB) "yaşıl" iqtisadiyyata keçidi üzrə birgə səylərin birləşdirilməsi məqsədilə "KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi" imzalanıb və KOB ekosisteminin bütün maraqlı tərəfləri bu Bəyannaməyə qoşulmağa dəvət olunub.

Beynəlxalq Ticarət Mərkəzi, Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidməti və KOBİA arasında imzalanan üçtərəfli əməkdaşlıq bəyannaməsi isə BMT-nin "2030: İnkişaf Gündəliyi"ndə qeyd edilən dayanıqlı və inklüziv iqtisadi inkişafa nail olmağı və KOB-ların aşağı karbon keçidinin asanlaşdırılması üzrə birgə əməkdaşlığın təşviqini nəzərdə tutur.

# Dünya Bakı iqlim konfransını alqışlayır

## *100 ölkədən 500 xarici QHT COP29-la bağlı birgə bəyanat yayıb*



**(əvvəli 1-ci səhifədə)**

Lakin biz müxtəlif rəyləri olan 198 tərəfin iştirakı ilə verilən bu ümumi qərarın hansı çətinliklər və gərgin müzakirələr hesabına ərsəyə gəldiyini dərk edirik. Fikrimizcə, bu razılığın əldə olunması kollektiv səylərin nəticəsidir və Bakı üçün tarixi bir andır. Əminik ki, sənəddə maliyyə artımı ilə bağlı yer alan çağırış COP prosesində gələcək danışıqların mühüm istinad nöqtəsi olacaq.

Biz post-COP29 dövründə də iqlim fəaliyyətinin gücləndirilməsi istiqamətində fəal iş aparacaq, COP29 mirasından bəhrələnəcək, bu istiqamətdə strateji xətti davam etdirmək üçün səylərimizi əsirgəməyəcəyik".

Xatırladaq ki, COP29 QHT Koalisiyası bu ilin yayında Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılıb. COP29 dövründə koalisiyaya qoşulanların sayı xeyli artıb, onların bir hissəsi COP-da xüsusi müşahidəçiliyi olan təşkilatlardır. Azərbaycan COP29-da Qlobal Cənub regionu üzrə QHT-lər üçün bu koalisiya vasitəsilə inklüziv mühit formalaşdırıb. COP29 QHT Koalisiyası müntəzəm əsasda hibrid görüşlər keçirir. Bəyanatdan da aydın görünür ki, koalisiya post-COP29 dövründə də fəal olacaq.

Ümumiyyətlə, son vaxtlar Azərbaycan QHT-lərinin təşəbbüslərinə xarici QHT-lər tərəfindən güclü dəstək verilməsi müşahidə edilir. 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərin Cənub¬-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib. Konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb. COP29-da təmsil olunan vətəndaş cəmiyyəti üzvlərinə açıq olan bəyanata 137 ölkədən 1023 QHT təmsilçisi, ictimai fəal imza atıb.

Qeyd edək ki, dünya ölkələrinin 71faizini əhatə edən regionlardan vətəndaş cəmiyyəti təsisatlarının Azərbaycan QHT-lərinin təşəbbüsünə dəstək ifadə etməsi Azərbaycanın QHT tarixində ilk dəfə baş verib.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, Azərbaycan dövlətinin apardığı siyasət Qlobal Cənubda böyük rəğbət və hörmətlə qarşılanır və ölkəmiz getdikcə Qlobal Cənubun güclü səsinə çevrilir.

# COP29-un 2 qlobal qərarı

**BMT-nin İqlim Dəyişmələri üzrə Qlobal İnnovasiya Mərkəzinin layihə rəhbəri Massamba Tioye Azərbaycan mediasına müsahibəsində 29-cu iqlim konfransında qəbul edilən 2 qərarın son dərəcə zəruri olduğunu bildirib. Onlardan birinin iqlim maliyyəsi ilə sıx bağlılığını vurğulayan layihə rəhbəri artıq gerçəkləşən həmin təşəbbüsün inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizəsinə böyük töhfə verəcəyi əminliyini diqqətə çatdırıb.**

"Digər qərar isə karbon bazarı, 6.4-cü maddə ilə bağlıdır. Bu qərar karbon bazarının işləməyə başlamasını təmin edəcək. Karbon bazarı isə müsbət təsir göstərmək üçün iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin həyata keçirilməsini asanlaşdıran çox vacib beynəlxalq siyasət vasitəsidir",– deyə M.Tioye vurğulayıb.




Onun sözlərinə görə, iqlim maliyyəsi ilə bağlı qərar bütün ölkələrə iş yerləri yaratmağa, daha sürətli iqtisadi inkişafı gerçəkləşdirməyə, hamı üçün daha ucuz və təmiz enerjinin əldə olunmasını sürətləndirməyə, eləcə də təmiz enerji bumunu genişləndirməyə əlverişli şərait yaradacaq. Bu, iqlim böhranının ön cəbhəsində gələnlər, xüsusən də ən həssas olanlar üçün real müdafiə tədbirlərini maliyyələşdirməyə kömək edəcək.

Paris Sazişinin 6-cı maddəsinin tam təsdiq edilməsi isə yüksək inteqrasiya olunan karbon bazarları üzrə danışıqların 10 ildən sonra uğurla başa çatmasıdır. Bununla COP29 Sədrliyinin əsas prioritetlərindən biri olan Paris Sazişi Tərəflərin intensiv ikitərəfli texniki və siyasi danışıqları vasitəsilə, nəhayət, tam təsdiqini tapır. Beləliklə, illərlə davam edən adıçəkilən strateji sənədin reallaşdırılmasına yol açılır.

Paris Sazişinin 6-cı maddəsi iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının həyata keçirilməsi nəticəsində xərclərin ildə 250 milyard dollara qədər azalcağı gözlənilir.

M.Tioye müsahibədə daha sonra qeyd edib ki, Paris sazişinin karbon emissiyalarının ticarəti və karbon vergilərini özündə ehtiva edən 6-cı maddəsi uzun illər idi ki, iqlimlə bağlı tədbirlərin əsas mövzusu idi. Hətta ötən il Dubayda keçirilmiş COP28 zamanı sözügedən maddənin razılaşdırılmasına böyük ümidlər bəslənilsə də, bu mümkün olmadı. Bu da qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə əlavə vəsaitin cəlb edilməsinə mane olurdu. Azərbaycan paytaxtında isə tərəflər bu sazişin 6.2, 6.4 və 6.8-ci maddələrini razılaşdırmaqla karbon bazarının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tam nəzarəti altında fəaliyyətinə "yaşıl işıq" yandırdılar. Xatırladım ki, bu maddə ölkələr arasında mitiqasiya tədbirlərinin nəticələrinə dair əməkdaşlıq edilməsini nəzərdə tutur. Belə ki, dövlətlər karbon qazlarının emissiyasının azaldılması və bu qazların meşələr vasitəsilə emal edilməsi üzrə həyata keçirdikləri tədbirləri barədə bir-birinə hesabat verməli, həmçinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrində bunu göstərməlidirlər.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

Fundamental nəşrlər

# Ədəbiyyat tarixin sınağında

## Rəhim Əliyevin “Yeni Azərbaycan ədəbiyyatı tarixi oçerkləri” kitabı haqqında






**Sabir RÜSTƏMXANLI,**
**Xalq şairi**

**Azərbaycanın tarixi ərazilərində və sərhədlərindən kənarda ana dilimizdə yaranmış ədəbiyyatımızın tarixini, təsir dairəsini, bağlı olduğu siyasi, dini, bədii, fəlsəfi, estetik dəyərləri araşdırıb, birlikdə təhlil edib mövcud ədəbi, nəzəri prinsiplərə uyğun sistemləşdirmək son dərəcə çətin bir işdir.**

AMEA Nizami adına Ədəbiyyat İnstitutunda son illərdə bu məsələlərlə bağlı xeyli iş görülmüşdür. Nəticə göz qabağındadır: illik ədəbi həyatın təhlilini aparan “Ədəbi proses” silsiləsinin 10-cu buraxılışı, iki cildlik “Ədəbiyyat nəzəriyyəsi”, iki cildlik “Cənubi Azərbaycan ədəbiyyatı” və çoxcildlik “Azərbaycan ədəbiyyatı tarixi” və s. Ədəbiyyatın dövrləşməsi probleminə həsr edilmiş elmi araşdırma və ayrı-ayrı ədəbi şəxsiyyətlər haqqında monoqrafiyalar, müstəqillik dövrü ədəbiyyatımızı əhatə edən iki cildlik fundamental nəşr, “Azərbaycan ədəbiyyatı tarixi”nin 7-ci cildi və Cənubi Azərbaycan ədəbiyyatına həsr edilmiş özəl cildi də bura əlavə olunmalıdır. Bütün bunlar Ədəbiyyat İnstitutunda gedən ardıcıl və səmərəli yaradıcılıq işinin göstəricilərindəndir.

Bununla belə, neçə-neçə din, inanc və hakimiyyət sisteminin, bədii-estetik cərəyanların izini, səsini, insan xarakterlərini, uğur və faciələrini qoruyub bu günə çatdıran ədəbiyyatımızın uzun əsrlər boyu yaratdığı söz xəzinəsini populyar nəzəri qəliblərə və ya ədəbi-ictimai ölçülərə sığışdırmaq mümkün deyildir. Buna görə də ədəbiyyat tarixi, yazılı ədəbiyyatın folklorla sərhədləri, ədəbi cərəyanlar və məktəblər, bir sıra dil və üslub məsələləri hələ də aydınlaşdırılmasını gözləyən mövzularla doludur, Üstəlik, klassik ədəbiyyatımızın bir sıra nümunələri nəşr edilib, oxuculara çatdırılmamışdır. Örnəyi: indiyədək ana dilli yazılı ədəbiyyatımızdan yalnız İzzəddin Həsənoğlunun cəmi 3 şeiri haqqında məlumatımız var idisə, bu yaxınlarda türkiyəli dostumuz, ədəbiyyatşünas alim Seyfəddin Altaylı onun 900 səhifəlik “Kitab-i sürətün Nəbi” poetik dastanını tapıb nəşr etdirmişdir. Bu böyük hadisə ədəbiyyat tariximizlə bağlı bundan sonra da yeni sürprizlərlə qarşılaşa biləcəyimiz ehtimalını gücləndirir.

Nizami adına Ədəbiyyat İnstitutunun bu dəyərli elmi əsərlərinin yazılıb ortaya çıxarılmasında, başqa həmkarları ilə birlikdə, institutun “Cənubi Azərbaycan ədəbiyyatı” şöbəsinin müdiri, filologiya elmləri doktoru, ədəbiyyatşünas və nəzəriyyəçi alim, tənqidçi, yazıçı Rəhim Əliyevin də böyük xidməti var.

Onun bu yaxınlarda nəşr edilmiş “Yeni Azərbaycan ədəbiyyat tarixi oçerkləri” kitabı (Bakı, 2024) yuxarıda söylədiyimiz problemlərin həlli həm də humanitar fikrimizin genişlənməsi baxımından yeni bir addım kimi dəyərlidir, ədəbiyyatşünaslıq elmimizə ciddi bir töhfədir.

Rəhim Əliyevin araşdırma sahəsi genişdir. O, müasir Azərbaycan şeri və nəsri ilə yanaşı, Qazi Bürhanəddindən, Nəsimidən, Xətaidən, Cəfər Cabbarlıya qədər klassik ədəbiyyatımızı hərtərəfli araşdırmış, təhlil etmiş və bir sıra sanballı əsərlər yazmışdır. Yəni o, XX yüzil ədəbiyyatımızla yanaşı, orta əsrlər Azərbaycan klassiklərinin yaradıcılığını dərindən araşdırıb dəyərləndirən görkəmli ədəbiyyat tarixçisi, eyni zamanda, nəzəriyyəçi alimdir.

Rəhim Əliyev böyük yazıçımız Mirzə İbrahimovun başladığı işi bacarıqla davam etdirir. İnstitutun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində, milli taleyimiz baxımından ciddi strateji əhəmiyyət daşıyır, səmərəli fəaliyyət göstərir. Güney ədəbiyyatı tarixinə həsr edilmiş kitabların məsul redaktorudur. Qələm dostum həm də istedadlı bir nasir olaraq bir çox nəsr əsərinin müəllifidir.

Rəhim Əliyevin “Yeni Azərbaycan Ədəbiyyatı tarixi oçerkləri” onun ardıcıl ədəbi fəaliyyətinin ciddi və qiymətli nəticəsidir. O, öz yaradıcılığında klassik və çağdaş ədəbiyyatımızı bir arada, həm də müasir ədəbi təfəkkürlə, yüksək ədəbi-elmi, nəzəri-fəlsəfi hazırlıqla təsvir edir. Bu baxımdan əsərləri ədəbiyyatşünaslığımızda özəl bir yer qazanmışdır.

Haqqında söhbət gedən kitab müəllifin ana dilli ədəbiyatımızın tarixinə həsr olunan oçerklər toplusunun III cildidir. Onun, təvəzökarlıqla yazdığı kimi, bu cild tam müfəssəl ədəbiyyat tarixi deyildir, lakin müstəqillik dövrünün verdiyi fikir azadlığına uyğun, ədəbiyyatımıza yamaq olan köhnə prinsiplərdən xilas olmuş yeni ədəbiyyat tarixilərnin yaranmasında ciddi rol oyanayacaqdır. Məncə, müəllifin bu kitabı da arzusunda olduğu həmin ədəbiyyat tarixinin özüllərindən biridir.

Reallığa və qəbul edilmiş prinsiplərə uyğun olaraq, müəllif Yeni Azərbaycan ədəbiyyatını Azərbaycanın parçalanması, Şimal torpaqlarımızın Rusiya tərəfindən işğalı və Avropaya açılması, bu bölgədə Avropa və rus maarifinin təsirinin güclənməsi ilə bağlayır; lakin haqlı olaraq, bu yeniləşmə hərəkatının köklərinin daha əvvəllərdə mərkəzdən qaçma hərəkatının və müstəqil Azərbaycan xanlıqlarının yaranması dövründə olduğunu qeyd edir.

Kitab təxminən ikiyüzillik ədəbi hərəkatın mürəkkəb mənzərəsinə işıq salan on bir fəsildən ibarətdir. Birinci fəsildə Rusiya işğalından XIX yüzilin ortalarına qədərki dövrün təhlili verilir.

Bu, əslində, Mirzə Fətəli Axundzadənin (kitabda Axundov-S.R.) fəal ədəbi fəaliyyətindən öncəki dövrdür. M.F.Axundzadə yeni Azərbaycanın fikir babası və memarıdır. Onun ədəbi, nəzəri, fəlsəfi baxışları ədəbiyyatşünaslar tərəfindən müxtəlif terminlərlə təqdim edilir. Rəhim Əliyev onu “Avropa tipli liberal-burjua maarifçiliyi” müstəvisində qiymətləndirir.

M.F.Axundzadə, yaşadığı mürəkkəb şəraitə baxmayaraq, xalqına fədakarlıqla xidmət etmiş, Azərbaycanın gələcək taleyini müəyyənləşdirən yeni bir yol başlamışdır.

Kitabın “Osmanlı maarifçiliyini Azərbaycana gətirmək təşəbbüsü. Divan ədəbi dili və gecikmiş romantizm” fəslində Əli bəy Hüseynzadənin; “Rusiya, Azərbaycan, Osmanlı Birinci Dünya müharibəsində. “Açıq söz” və müsavatçı hərəkat” fəslində Cəfər Cabbarlının; “Ikinci Azərbaycan Respublikasının (Aprel 1920-may 1922) ləğvi və Moskva–Bakı konfliktləri. 1918–1934-cü illərdə marksist milli hərəkat.” fəslində Nəriman Nərimanovun şəxsiyyəti, yaradıcılığı və taleyi araşdırılır və təhlil edilir.

Fəsillərin adlarından da göründüyü kimi, kitabda bu böyük ədəbi simalarımızın yaradıcılığı ilə yanaşı, onların dünyagörüşünə təsir göstərən tarixi amillər, ictimai-siyasi mühiti də müəllifin diqqət mərkəzindədir. Həmin silsilədən olan yazıları digər ədəbiyyat tarixlərindən fərqləndirən cəhətlərdən biridir.

Bu fəsillərdə araşdırmaya xeyli tarixi sənəd, arxiv materialı cəlb edilmişdir. Həmin məlumatların bəzisi oxucu üçün yenidir. Bütün bunlar göstərir ki, Rəhim Əliyev yalnız ədəbiyyatşünas deyil, həm də tarix üzrə görkəmli mütəxəssisdir.

Ümumiyyətlə, tarixlə ədəbiyyatın əlaqələri əsrlər boyu müzakirə edilən mövzulardandır: həqiqətə tarixçi daha yaxındır, yoxsa tarixdən yazan yazıçı? Bu məsələnin üzərində geniş dayanmaq istəmirəm. Əsas budur ki, tarixi və ədəbiyyatı biri-birinə bağlayan cəhətlər çoxdur və bu bağlılıq hər zaman bədii fikrin və humanitar elmlərin inkişafına yardım edib. Buna görə də ədəbi şəxsiyyətləri və onların əsərlərini təkcə Azərbaycanda və dünyada gedən proseslərlə birgə təhlil etməsi Rəhim Əliyevin kitabının dəyərini artıran cəhətlərdəndir.

Kitabın VI fəslində Marksist dünyagörüşünün hakim olduğu 1920-1940-cı illərin proletkult ədəbiyyatı araşdırılır. Alimin diqqət mərkəzində o dövrdə əsərləri ən çox müzakirə edilən parlaq ədəbi simalardan biri, bəlkə də birincisi olan Cəfər Cabbarlı dayanır; onun “Od gəlini” pyesi “peyğəmbərlik və antiutopiya” tezisi ilə təhlil edilir. Bu fəsildə eləcə də Birinci Türkoloji Qurultayın qərarları gözdən keçirilir, əlifbanın və orfoqrafiyanın dəyişdirilməsi barədə müəllifin irəli sürdüyü mülahizələr maraqlıdır. Cənubi Azərbaycanda ortaya çıxmış “Danişməndani-Azərbaycan” adlı məşhur kitabın müəllifi Məhəmmədəli Tərbiyətin həyat və yaradıcılığı haqqında ətraflı məlumat da həmin fəsildə yer almışdır. Göründüyü kimi, mövzu çox genişdir; müəllif dövrün biri-birindən uzaq fikir qütbləri arasında dolaşmağı və doğru elmi nəticələr çıxarmağı bacarmışdır.

Böyük dramaturqumuz Cəfər Cabbarlının yaradıcılığı, gənclik illərindən başlayaraq Rəhim Əliyevin əsas tədqiqat mövzularından biridir və böyük dramaturqun əsərlərinə hər müraciətində ədəbiyyatşünaslığımızı zənginləşdirən yeni mövzulara toxunur. O, haqlı olaraq, belə hesab edir ki, Cabbarlı öz yaradıcılığının vüsəti, sənət xəzinəsinin zənginliyi etibarilə Mirzə Fətəli Axundovdan və Cəlil Məmmədquluzadədən sonra yeni Azərbaycan ədəbiyyatının ən görkəmli simasıdır və toxunduğu mövzuların milli düşüncəyə təsiri baxımından bir dahidir.

Müəllifin bu fikri ilə də razılaşmamaq olmaz ki, “Od gəlini” bizim milli düşüncəmizin və ana dilimizin ən müdrik kitabı olaraq həmişə ən fəxri yerdə duracaqdır”.

Rəhim Əliyevin Birinci Türkoloji Qurultayın türkologiyaya xidmətdən daha çox mərkəzi hakimiyyətin türk respublikalarını öz köklərindən qoparmaq və ruslaşdırmanı sürətləndirmək işinə xidmət etdiyi barədə fikirləri də doğrudur. Lakin türk xalqlarının immuniteti və öz külündən doğulmaq gücü nəticədə qurulan planları pozdu.

Kitabın ən maraqlı və zəngin bölmələrindən biri “İkinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda muxtariyyət uğrunda hərəkat və ədəbiyyat” fəslidir. Cənubi Azərbaycanın o dövrki ədəbiyyatı ilə yanaşı, 1945-1946- ci illər Milli hökumətin yaranma tarixi, əlaqələri və tənəzzülü, bu işdə SSRİ, ABŞ və Böyük Britaniyanın xəyanətkar və qanlı rolu ətraflı şəkildə təhlil olunur; milli mətbutın yaranması, ana dilli ədəbiyyatın inkişafı haqqında söz açılır.

Stalinin ölümündən sonrakı, liberallaşma dövründə yaranan ədəbiyyatımız kitabda geniş yer tutur. Burda da müəllif öz təhlil tərzinə və üslubuna sadiq qalaraq ədəbi şəxsiyyətləri və əsərləri zaman kontestində qiymətləndirir.

Rəhim Əliyevin oçerklərdə təhlil etdiyi son iki əsr həm Azərbaycan, həm dünya tarixinin son dərəcə mürəkkəb dövrüdür; qanlı-qadalı işğallarla, dünya savaşlarıyla, inqilab və repressiyalarla, xalqları öz torpaqlarından qoparan böyük köç dalğalarıyla səciyyələnir.

İki yüz ilin ədəbi mənzərəsi də yarandığı zamana uyğundur və mürəkkəbdir; deyək ki, Füzulidən Vaqifə kimi, hətta M.F.Axunzadəyə kimi daha çox divan ədəbiyyatından və aşıq şeirindən gələn ənənələr son 150 ilin hər 30-40 ilində fərqli bir ictimai fırtınadan keçmiş, yeni-yeni cərəyanlara qoşulmuş, yeni forma və üslublarla zənginləşmişdir.

Belə bir mürəkkəb mühitin ədəbi meyillərini və yaradıcılarını obyektiv və layiqli şəkildə dəyərləndirmək, ümumiləşdirmək böyük ədəbi təcrübə, yüksək peşəkarlıq tələb edir. Bu dövr kitabın 8–11-ci fəsillərində əksini tapıb. Həmin fəsillərdə adları çəkilən qələm sahiblərinin, SSRİ-nin dağılması ərəfəsində yaranan və milli şüurun inkişafında ciddi rol oynayan şair və yazıçıların əsərlərini təhlil edərkən, ədəbi portertlərini yaradarkən və ya bütövlükdə sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında danışarkən Rəhim Əliyevi fərqləndirən başqa yeni keyfiyyətlər ortaya çıxır. Bu yazılarda biz onu kamil ədəbi tənqid ustası olmaqdan əlavə, həm də gedən proseslərə müdrikliklə qiymət verən bir filosof, sözünün məsuliyyətini dərk edən və mürəkkəb proseslərin içində həqiqəti görən və xalqın gələcəyi, inkişafı baxımından dəyərləndirən ayıq bir ictimai-siyasi xadim kimi görürük. Məsələn, müstəqilliyin coşqun, qurucu olmaqla yanaşı, bəzən də dağıdıcı havasında keçmişdə olanların bütünlüklə inkarı bir xəstəliyə çevrilir. Bolşevik inqilabının bu pis “ənənəsi” 1990-cı illərin əvvəllərində də baş qaldırmışdı və keçmişdən qalan hər şeyin üstündən xətt çəkmək istəyənlərin səsi ədəbiyyatı da bürümüşdü. Hətta bütöv bir nəsil üçün vətənpərvərlik məktəbi olan Cəfər Cabbarlı və Səməd Vurğun kimi böyüklərimizə də qarayaxmalar kampaniyası başlanmışdı. Qaragüruha qarşı dayanmaq və inandığın həqiqətləri demək həmişə çətindir. Lakin Rəhim Əliyev öz təbiətinə xas təmkin və inamla səsini qaldırır: “Sovet sisteminin radikal tənqidçiləri ifrata vararaq 1920-1990-cı illər dövründə yaranan ədəbiyyata, Marksist-Leninçi məfkurəsini daşıdığı üçün neqativ qiymət verir, onun heç bir müsbət xüsusiyyətini görmürdülər. Halbuki sovet ədəbiyyatı da bir sıra mərhələlərdən keçmiş, bu mərhələlərin hər birində özünəməxsus müsbət və mənfi keyfiyyətlərlə, ənənələrlə zənginləşmişdir”. Bu mənfi xüsusiyyətləri göstərdikdən sonra müəllif ictimai-bədii fikrin tarixinə, inkişaf təcrübəsinə və real mənzərəsinə uyğun, dəqiq nəticəyə gəlir. “...SSRİ imperiyasının tərkibinə daxil olan bir sıra xalqların, o cümlədən Azərbaycan xalqının da ədəbiyyatı və mədəniyyəti, xüsusilə mətbuatı və ədəbi dili, tərcümə mədəniyyəti, ədəbiyyatşünaslıq və ədəbi tənqid, estetika və fəlsəfə tarixi sahəsində son dərəcə qiymətli işlər görülmüş, elmi məktəb və ənənələr yaradılmışdır. ...Keçmişi, o cümlədən sovet dövrü tarixini bilmək, onun faciələrindən nəticə çıxarmaq, bu dövrdə yaxşı nə varsa, qorumaq, mədəniyyətimizin sabahı naminə irəli aparmaq lazımdır”. Bu, artıq hadisələrin, məsələlərin bəsit izahatından daha çox xalqının sabahını düşünən mütəfəkkir yanaşmasıdır.

Ədəbiyyatın milli taledəki rolu haqqında da danışarkən biz Rəhim Əliyevi həmin fikir yetkinliyində görürük.

“...Azərbaycançılığın, milli şüurumuzun başlıca xəzinəsi bütün dövrlərdə bədii ədəbiyyatımızla, böyük söz sənətkarları ilə bağlı olmuşdur. Bu şüurun ən qiymətli tərkib hissələrindən biri də sovet dövründə, bolşevik terroru, birpartiyalı totalitarizm təzyiqi altında yaransa belə, sovet quruluşu illərində yaradılmışdır. ... Bu mənada sovet dövründəki mətbuat və təhsil sisteminin ən yaxşı xüsusiyyətləri qorunmalı, təbliğ və inkişaf etdirməlidir”. Rəhim Əliyev kitabının son 4 fəslində məhz bu obyektiv yanaşması ilə diqqəti cəlb edir.

Sovetlərdə nisbi liberalizm illərinə (1946-1964) həsr olunmuş bölmədə müəllif Mirzə İbrahimov, İlyas Əfəndiyev, İsa Hüseynov, Məmmədcəfər Cəfərov, Məhəmmədhüseyn Şəhriyar və Məmməd Arif kimi ötən əsrdə, güneyli-quzeyli Azərbaycanda yetişmiş və əsərlərində hər iki tərəfin problemlərini dilə gətirmiş görkəmli sənətkarlarımızın ədəbi portretlərini yaratmış, yığcam şəkildə onların həm ömür yolu, həm ədəbi yaradıcılığı, həm də ictimai-siyasi həyatımızda tutduqları mövqe haqqında dəqiq məlumatlar vermişdir. Onun bu seçiminin ümumi məntiqini anlamaq üçün Mirzə İbrahimov haqqında dediyi sözləri oxumaq yetərlidir: “Mirzə İbrahimov sovet dövründə Azərbaycan xalqının milli istəklərini dövlət və ədəbi səviyyədə təmsil edən böyük tarixi şəxsiyyətimiz idi. Onun ömrü ədəbiyyatımızın maarif və mədəniyyətimizin, milli dilimizin və dövlətçilik arzularımızın axtarıldığı, qurulduğu ən qaynar yerlərdə keçib.”

Kitabın “Nomenklatura ədəbiyyatı və onun sosrealizmdən uzaqlaşıb ümumbəşəri ədəbi təcrübəyə qayıtma meyilləri. (1964-1982” fəslində müəllif Cəmil Əlibəyov, Əfqan Əsgərov, Əkrəm Əylisli, Anar və Elçinin yaradıcılığının ideoloji basqıdan xilas olmasının əhəmiyyətindən söz açır.

“SSRİ-nin dağılması ərəfəsində milli-bədii fikrin sürətli tərəqqisi (1982-1991)” fəslində isə Çingiz Hüseynov, Musa Yaqub, İsi Məlikzadə, Afaq Məsud, Yaşar Qarayev, Asif Əfəndiyev və başqa müəlliflərin yaradıcılığının bədii-ictimai məziyyətləri təhlil edilir...

Kitabı dövrün ədəbiyyat tarixinə tam yaxınlaşdıran cəhətlərdən biri müəllifin çox vaxt tənqidi fikrimizin diqqətindən kənarda qalan, əslində isə, müstəqillik dövrü ədəbiyyatımızın əsas ruhunu və istiqamətlərini müəyyənləşdirən qələm sahiblərindən Aslan Quliyev, Rasim Qaraca, Həmid Herisçi, Seymur Baycan kimi istedadlı yazıçılarımızın hər biri haqqında mükəmməl portret oçerklər yazmasındadır. Doğulub yaşadıqları mühit, keçdikləri yaradıcılıq yolu haqqında ətraflı və maraqlı məlumat verən tənqidçi həm də onların demək olar ki, bütün iri əsərlərini tək-tək təhlil edir, dünya və Azərbaycan ədəbiyyatı kontekstində qiymətləndirir. Bu yazıları fərqləndirən əsas cəhət tənqidçinin adları çəkilən müəlliflərə son dərəcə böyük səmimiyyət, diqqət və sevgi ilə yanaşmasıdır. Bu xüsusiyyət, bütövlüklə, Rəhim Əliyevin yaradıcılığına, o cümlədən müstəqil ədəbi cərəyan kimi meydana çıxmış, “Azad yazarlar ocağı” və ayoçular haqqında kitabda gedən yazılarına xasdır. “Alatorançılara məktub və ya 13-cü say haqqında” başlığı daşıyan bölmədə o, yeni ədəbiyyata diqqətinə, təhlil və tanıtma prinsiplərinə sadiq qalaraq Rafiq Tağı, Nərmin Kamal, Azər Əhmədov, Günel Mövlüd, Əli Əkbər, Azad Yaşar, Aqşin Yenisey və Sevinc Pərvanənin yaradıcılığını yığcam şəkildə dəyərləndirməyə çalışır. Bundan əlavə, kitabda müəllifin “Şamaxı ədəbi məktəbinin davamı – “Tək səbir” qəzeti və istedadlı gənc yazıçı Həmid Piriyev haqqında resenziyaları da yer almışdır.

Rəhim Əliyevin ədəbiyyat tarixi ümumi tariximizi dərindən bilən bir alimin uzun illər davam edən yaradıcılıq axtarışlarının nəticəsidir. Bir sıra hallarda o, qəbul edilmiş şablon yollardan uzaqlaşır, söz sənətimizin tarixinə öz məntiqi və elmi nəticələri işığında yanaşır. Axına qarşı üzməkdən, rəsmi mövqelərə qarşı alternativ söz deməkdəm çəkinmir. Bu hər bir alim üçün son dərəcə gərəkli olan bir xüsusiyyətdir. Bununla belə, mən kitabın ümumi əhəmiyyətini nəzərə alaraq, belə hesab edirəm ki, on birinci fəsildəki “açıq məktub”un əvəzinə həm xalq şairi Rəsul Rzanın, həm də Xalq yazıçısı Anarın yaradıcılıqları, xidmətləri, Yazıçılar Birliyi ilə müəllifin arasındakı konfliktdən asılı olmadan, ədəbiyyatımızdakı yerlərinə görə, obyektiv təhlil edilib oçerklərin sırasına qoşulsa, kitabın xeyrinə olardı. Çünki həm ata, həm oğul ədəbiyyatımızın böyük simalarıdır. Bu, inkarı mümkün olmayan bir məsələdir.

Azərbaycan ədəbiyyatının bütün tarixi insan sevgisindən yoğrulub və gözəlliyin, xeyirin, işığın qorunmasına xidmət edir. Mən bütün keçdiyimiz yollara və qarşılaşdığımız çətinliklərə bu mövqedən baxmağın tərəfdarıyam. Son hakim biz deyilik, zamandır.

Görkəmli ədəbiyyatşünas alimimizin, ədəbi tənqidimizin böyük yaradıcılarının yolunu uğurla davam etdirən Rəhim Əliyevin bu silsilədən olan yeni cildlərini gözləyirik...

Güllü Mustafayeva – 105

# Danışan rəsmlərin solmayan rəngləri

**Azərbaycan rəssamlıq sənətinin çoxşaxəli olmasında qadın boyakarların da rolu danılmazdır. Gözəl əsərlər yaradan qadın fırça ustalarımızdan biri də Güllü Mustafayeva olub.**

Türkmənistanın Cərco şəhərində dünyaya göz açsa da, Güllü xanım əslən Şamaxıdan idi. Atası Mirzə Ələkbər Sabirin qohumu, anası isə Seyid Əzim Şirvaninin nəslindən olub. O, 8 yaşında ikən ailəsi Bakıya köçüb. Yaşadıqları qədim İçərişəhərin özünəməxsus ab-havası gənc qızın boyakarlığa könül verməsində az rol oynamayıb. Bəlkə də rəngli karandaşlarla çəkdiyi ilk sınaq rəsmlərini elə üzündə tarixin sirli-sehirli “qırış”ları olan İçərişəhərə həsr edib.

Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirdikdən sonra müstəqil yaradıcılıq fəaliyyətinə başlayıb. Rənglərə can verib, müxtəlif janrlarda maraqlı əsərlər ərsəyə gətirib. Dövlət Rəsm Qalereyasında Milli İncəsənət Muzeyində, N. Gəncəvi adına Ədəbiyyat Muzeyində saxlanılan süjetli tablo, portret, mənzərə və natürmortları Azərbaycan rəssamlığının qənimət nümunələridir. Bakıda dönə-dönə fərdi sərgiləri təşkil edilib, Paris, Budapeşt, Qahirəyə yaradıcılıq ezamiyyətləri sanballı rəsmlər yaratmasına vəsilə olub.



Güllü Mustafayevanı fərqləndirən cəhətlərdən biri də onun öz yaradıcılığında ədəbiyyat, incəsənət mövzularına üstünlük verməsidir. Sənətsevərlər rəssamın “Nizami qoca aşığı dinləyir”, “Leyli və Məcnun mədrəsədə”, “Məcnunun Leylinin məzarı üzərində ölməsi” kimi süjetli əsərləri, “Məhsəti Gəncəvi” portreti dahi N.Gəncəvinin “Yeddi gözəl” poemasında bu möcüzəli sənət barədə dediklərini yada salır: “Surətpərəstlər üçün surəti qəşəngdir, məzmunsevənlər üçün də məğzi vardır”. Güllü xanımın portretləri Şirinin Xosrovu rəssam Şapurun çəkdiyi rəsmdə görüb ona aşiq olması qədər cəlbedicidir, – desək, yanılmarıq.

XII əsr şairi Məhsəti Gəncəvinin ən uğurlu portretini, fikrimizcə, Güllü Mustafayeva yaradıb. Zamanında Sultan Səncər ona bədahətən rübai söyləyən xanım şairə deyib ki, “to, meh-həsti” (yəni, “sən hamıdan böyüksən”). Elə portretdən də Məhsətinin böyüklüyü, ağayanalığı görünməkdədir. Onu da xatırlasaq ki, Gəncənin Xərabat məhəlləsində yaşayan Məhsəti xanım gənc sənətkarları ruhlandırmaq üçün onlara şeirlər həsr edib, çox güman, Güllü Mustafayevanın çəkdiyi portreti də bəyənər və gözəl bir rübai ilə dəyərləndirərdi.

Təsadüfi deyil ki, Güllü Mustafayevanın qızı musiqişünas Zemfira Qafarova bu əsər haqqında deyib: “Onun vizit kartı – öz üzünün cizgilərindən istifadə edərək, yaratdığı XII əsrin xanım şairi Məhsəti Gəncəvinin portreti idi”.

“Yazıçı Süleyman Rəhimov”, “Abdulla Şaiq”, “Rəssam Səttar Bəhlulzadə”, “Rəssam Maral Rəhmanzadə” portretləri də Güllü Mustafayevanın söz-sənət adamlarına sevgisinin təzahürü kimi dəyərləndirilə bilər. Bu bədii surətlər qalereyasında hər bir rəsmin özünəməxsus ideyası, qəhrəmanın xarakterik cizgilərinin qabarıq verilməsi yaddaqalandır.

Görkəmli portret ustası 2 dəfə Əmək qəhrəmanı Bəsti Bağırovanın, oftalmoloq, tibb elmləri doktoru Umnisə Musabəyovanın, nevropatoloq, tibb elmləri doktoru Zəhra Salayevanın da kətan üzərində obrazlarını özünəməxsus tərzdə yaradıb.

Xalq rəssamının mənzərə əsərləri seyrçiyə təbiətə sevgi duyğuları aşılayır. “Xaçmaz”, “Quba”, “Şuşa”, “Qusar” mənzərələri, Dilican və Buzovna etüdləri dilbər guşələrə “səyahət”ə aparır, göz-könül oxşayır. Sanki rənglər dilə gələrək, ölkəmizin əsrarəngiz dilbər guşələri haqqında məhəbbət nağılları danışır. Onun saf uşaq dünyasına tükənməz sevgisi də işıqlı portretlərindən boy göstərir. “Bizim uşaqlar” silsiləsində “Rahilə”, “Aytən”, “Ülkər”, “Skripka çalan Sevinc”, “Leyla”, “Sevinc”, “Balanisə”, “Rəna”, “Sevda”, “Lalə”, “Gülşən” və başqaları hərəsi öz parlaq dünyası ilə təqdim olunub. Bu barədə söz düşəndə Güllü Mustafayeva deyirdi: “Günəşli diyarımızın xoşbəxt uşaqları – gül nəfəsli körpələr neçə-neçə əsərimin qəhrəmanı olub. Hər dəfə də mənə elə gəlib ki, bu mövzuya yenicə müraciət edirəm. Dəfələrlə xarici ölkələrdə olmuşam. Balaca dostlarımla görüşüb söhbət etmişəm, portretlərini işləmişəm. Onları şən, xoşbəxt görəndə əlim də yaxşı işləyib, cizgilər, boyalar sanki öz-özünə tapılıb. Belə anlarda onlarla birgə mən də sevinmişəm, əsərimin yaxşı çıxacağına ürəkdən inanmışam”.

Onun bütün ətrafı sənətçilərdən ibarət olub. Bəstəkar Ramiz Mustafayev və dirijor Faiq Mustafayev Güllü xanımın qardaşlarıdır. Onun özünün gözəl səsi də olub və ailə məclislərində sevdiyi xalq mahnılarını, ariya və romansları həvəslə ifa edib. Tale elə gətirib ki, Güllü Mustafayeva iki dəfə ailə qurub və hər iki izdivacı rəssam həmkarları ilə olub – Həsən Haqverdiyev (həm də gözəl tar ifaçısı) və o, “gedər-gəlməz”ə sürgün edildən xeyli sonra isə Nəcəfqulu İsmayılovla. Əməkdar artist, müğənni və rəssam Əli Haqverdiyev, musiqişünas, pedaqoq, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Zemfira Qafarova, orqan ifaçısı, Əməkdar artist Rəna İsmayılova və skripkaçı Sevinc İsmayılova onun övladlarıdır. Güllü Mustafayevanın rəsmlərinin rəng ahəngdarlığı və həzin ovqatını onun yaxın dairəsinin musiqiçilərdən ibarət olması ilə də bağlamaq olar.

Düz 30 il əvvəl haqq dünyasına qovuşmuş Güllü Mustafayevanın fırça ilə yaratdığı rəng “melodiya”ları bu gün də göz-könül oxşamaqdadır.

***Əli NƏCƏFXANLI***
***XQ***

Beynəlxalq konfrans



# MEK-də Avrasiya Elmi Araşdırmalar müzakirəsi

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Beynəlxalq Elm və Sənət Tədqiqat Mərkəzi və Türkiyə İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə I Beynəlxalq Avrasiya Elmi Araşdırmalar və İnnovasiyalar Konfransı keçirilib.**

Konfransın plenar iclasında MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov kitabxananın yaranma tarixi, fondu və fəaliyyət istiqamətləri haqqında iştirakçılara ətraflı məlumat verib. O, MEK-nin Azərbaycanın elm və mədəniyyətinə verdiyi töhfələri vurğulayaraq, xüsusi olaraq Qarabağ müharibəsi qəhrəmanları fondunda toplanan nəşrlərdən danışıb. Qeyd edib ki, bu fondda Qarabağ müharibəsi iştirakçıları və qəhrəmanları haqqında kitablar, elmi araşdırmalar və digər qiymətli materiallar toplanıb. Bu nəşrlər müharibənin tarixi və cəmiyyətə olan təsiri barədə geniş məlumat verir.

MEK direktoru bildirib ki, AMEA-nın bir hissəsi olan kitabxana alimlərə, tədqiqatçılara və tələbələrə geniş məlumat bazası və resurslar təqdim etməklə, elmi araşdırmaların inkişafına töhfə verməyə davam edir.

İKSAD-ın Azərbaycan üzrə baş koordinatoru Əlvan Cəfərov və konfransın qrup rəhbəri Yasəmən Ağaoğlu azərbaycanlı yazarların kitablarının QR kodlarının yerləşdirildiyi elektron plakatı MEK oxucularının istifadəsi üçün kitabxanaya hədiyyə ediblər və yaradılan şəraitə, MEK-in kollektivinə minnətdarlıqlarını bildiriblər.

Konfransda 250-yə yaxın məruzə və təqdimat dinlənilib. Sonda konfransın iştirakçılarına sertifikatlar təqdim olunub.

***XQ***

Təqdimat

# “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər”

**Bakı Kitab Mərkəzində Qərbi Azərbaycan İcmasında (QAİ) “Kainat” Milli-Mənəvi Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin təsisçisi, QAİ Qadınlar Şurasının üzvü, İrəvan Şəhər İcmasının sədri, filologiya elmləri doktoru, professor Fəridə Səfiyevanın “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər” kitabının təqdimatı keçirildi. Tədbirdə incəsənət xadimləri, yazıçılar, şairlər, ziyalılar və mətbuat nümayəndələri iştirak edirdi.**




Təqdimatın moderatoru telejurnalist, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı bildirdi ki, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin təşəbbüsü ilə çap olunmuş kitab ötən əsrdə Qərbi azərbaycanlıların deportasiyaları zamanı İrəvanda baş vermiş hadisələrdən və şəhərin tanınmış şəxsiyyətlərindən bəhs edir. T.Pənahqızı kitabda İrəvan tarixi üçün vacib məqamların işıqlandırıldığını qeyd edərək bildirdi ki, bu tədqiqat əsəri sayəsində İrəvanın tarixi həqiqətlərini və şəxsiyyətlərini daha dərindən öyrənmək mümkündür.



Sabiq diplomat, alim Həsən Həsənov “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər” kitabının mötəbər mənbə olduğunu vurğulayaraq dedi ki, İrəvan şəhərinin tarixi və şəxsiyyətləri haqqında məlumatların toplanması və nəşr edilməsi gələcək nəsillərin bilgili olması baxımından önəmlidir. İrəvanla bağlı xatirələrini bölüşən alim diqqətə çatdırdı ki, zəngin memarlığı ilə tanınan şəhər Fəridə Səfiyevanın hazırladığı kitabda xatırlanan şəxsiyyətləri ilə bizi qarşılayır.

Qərbi Azərbaycan İcmasının yaradılmasını uğur hesab edən Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova bu kitabı Prezident İlham Əliyevin alimlərə çağırışına cavab olaraq yazıldığını qeyd etdi. Bildirdi ki, əsas məsələ dünya ictimaiyyətinin də bu həqiqətləri bilməsini təmin etməkdir.

Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov, professor Dilarə Seyidzadə, digər çıxış edənlər “İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər” kimi tədqiqatların İrəvanın tarixinin, mədəniyyətinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması baxımından əvəzsiz rol oynadığını diqqətə çatdırdılar.

Kitabın müəllifi Fəridə Səfiyeva bütün iştirakçılara təşəkkür edərək, əsərin Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində dövlətimizin gördüyü genişmiqyaslı işlərin tərkib hissəsi olacağına ümid etdiyini bildirdi.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Teatr aləmində

# Azərbaycanlı rejissor Aytmatov mükafatı alıb

**Rusiyanın Sankt-Peterburq şəhərində MDB Parlament Assambleyasının Çingiz Aytmatov mükafatının təqdimatı keçirilib. Mükafatın laureatı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə olub. O, bu mükafata Çingiz Aytmatovun “Gün var əsrə bərabər” romanının səhnə versiyasına görə layiq görülüb. Mükafatı MDB PA Şurasının sədri, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko və Qırğız Respublikası parlamentinin sədri Nurlanbek Şakiyev təqdim ediblər.**

Nurlanbek Şakiyev qeyd edib ki, Çingiz Aytmatov qırğız xalqının fəxr etdiyi ədibdir. Onun əsərləri müxtəlif mədəniyyətlərə, millətlərə yaxındır, hamımızı birləşdirir. Çingiz Aytmatov ümumi sərvətimiz, ortaq qürurumuzdur, bizi həmfikir edir. Parlamentin sədri çıxışının yekununda qeyd edib ki, bu mükafatın təsis edilməsi barədə qərar Assambleya tərəfindən bütöv xalqları öz əsərləri ilə birləşdirən böyük ədibin xatirəsinə atılan mühüm addımdır. Mehriban Ələkbərzadə mədəniyyət, ədəbiyyat sahəsindəki çoxsaylı xidmətlərinə, mədəniyyətlərin yaxınlaşmasına, MDB ölkələri arasında dostluğun möhkəmlənməsinə verdiyi töhfəyə görə bu mükafata layiq görülüb.



Mehriban Ələkbərzadə yüksək mükafata görə cavab nitqində MDB PA-ya minnətdarlığını bildirib. O filosof-yazıçı Çingiz Aytmatovun adına təsis edilmiş mükafata layiq görüldüyü üçün sevindiyini dilə gətirib. Deyib ki, Ç.Aytmatov bütün dünyada oxşar taleləri yaşayan və gələcək haqqında eyni düşüncədə olan xalqların hamısının yazıçısıdır. O, qırğız xalqına bütün dünyaya belə nadir, fenomenal yazıçı və mütəfəkkir bəxş etdiyinə görə təşəkkür edib. Təqdimat mərasimindən sonra Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova yüksək mükafata layiq görülməsi münasibətilə Mehriban Ələkbərzadəni təbrik edib.

**Çingiz Aytmatov mükafatçısı Mehriban Ələkbərzadənin XQ-yə qısa müsahibəsini təqdim edirik.**

**– Mehriban xanım, Çingiz Aytmatov mükafatına layiq görüldüyünüz üçün Sizi təbrik edirik. Bu mükafatın mahiyyəti, sizin üçün daşıdığı dəyər barədə fikirləriniz maraqlıdır.**

– Təşəkkür edirəm. MDB Parlament Assambleyasının Mədəniyyət, İnformasiya, Turizm və İdman Daimi Komissiyası hər il ədəbiyyat sahəsində nailiyyətlərə, görkəmli orijinal əsərlərə və çoxşaxəli ədəbi fəaliyyətləri nəzərdən keçirərək dəyərləndirmə aparır. Mahiyyət etibarilə böyük mükafatdır. Çünki Aytmatov mənim üçün milli və bəşəri anlamda çox böyük yazıçıdır. Böyük ədibin əsərlərindən mənsub olduğu qırğız torpağının, çöllərinin ətri gəlir. Ç.Aytmatov oxşar tarix, taleləri yaşayan bütün xalqların yazıçısıdır. Nəzərə alsaq ki, Ç.Aytmatov uşaqlıqdan oxuduğum sevimli yazıçıdır. Əlbəttə ki, bu, mənim üçün əvəzolunmaz mükafatdır. Bu mükafata Azərbaycanın Xalq yazıçısı Anar Rzayev, rus yazıçısı, şairi, dramaturqu, ssenaristi Yuri Polyakov, Qazaxıstanın şair, yazıçı-ədəbiyyatşünası Oljas Süleymenov, Qırğızıstan Milli Elmlər Akademiyasının Ç.Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun direktoru, ədəbiyyatşünas Abdyldajan Akmataliev və digərləri layiq görülüb.

Mən “Gün var əsrə bərabər” romanının səhnə variantının müəllifiyəm. Əsəri pyes halına çevirmişəm. Mərasimdə xüsusi olaraq qeyd edildi ki, əsərdəki trilogiya bir kontekstdə dünəni, bu günü və sabahı özündə ehtiva edən bir-birinə bağlı, bitkin formada təqdim edilib.

**– Gələcəkdə Çingiz Aytmatovdan və qırğız ədəbiyyatının digər təmsilçilərindən hansı əsərləri səhnələşdirmək istəyirsiniz?**

– Aytmatov oxucunu cəmiyyətə, dünyaya, təbiətə, taleyinə düşündürür, hətta yeni gözdən baxmağa vadar edir. O, dərin milli, eyni zamanda, bütün dünyada başadüşülən yazıçı idi. Düşünürəm ki, onu bir mütəfəkkir kimi unikal edən də budur. Bu səbəbdən gələcəkdə onun “Plaxa” (“Edam kötüyü”) əsərini səhnələşdirmək barəsində düşünürəm. Dünyada bundan yüksək məqsəd ola bilməz. Ruhun parlaq kamilliyinə yüksəlmək üçün rasional varlığı da insanın özünü təkmilləşdirməsidir. İnsanın gündən-günə insani vərdişlərə yiyələnməyinin bariz nümunəsi də elə “Edam kötüyü”dür.

Xatırladaq ki, Çingiz Aytmatov mükafatı 2012-ci ildə Qırğız Respublikası Joqorku Keneşinin (Parlament) təşəbbüsü ilə təsis edilib. O, hər il ədəbiyyat sahəsində nailiyyətlərə, görkəmli orijinal əsərlərə və çoxşaxəli ədəbi fəaliyyətə görə verilir.

***R.FİKRƏTOĞLU***
***XQ***

# “Nizamişünaslıq” jurnalının yeni nömrəsi

**Bu günlərdə AMEA Gəncə Bölməsi “Nizamişünaslıq” elmi əsərlər jurnalının növbəti 10-cu nömrəsini çap etmişdir.**




Jurnalın bu nömrəsində Azərbaycan, Türkiyə və İrandan 20 müəllifin məqaləsi dərc edilmiş və həmin yazıların hamısı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuşdur.

ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, BDU-nun dosenti Əsmətxanım Məmmədova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Abbasqulu Nəcəfzadə, Ərzurum Atatürk Universitetinin professoru Nimet Yıldırım, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Vüqar Əhməd, AMEA Gəncə bölməsinin Nizami Gəncəvi Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov və başqalarının məqalələrində maraqlı faktlar, elmi yanaşmalar diqqəti cəlb edir.

Qeyd edək ki, “Nizamişünaslıq” jurnalına Azərbaycan dili ilə yanaşı, ingilis, rus, türk və başqa dillərdə də məqalələr qəbul edilir. Məcmuənin redaksiya heyətində Azərbaycanın və dünyanın görkəmli nizamişünas alimləri yer alıblar.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Bakıda Şimali Kiprin müstəqillik günü qeyd edilib



**Şimali Kipr Türk Respublikasının müstəqilliyinin 41-ci ildönümü münasibətilə noyabrın 28-də Bakıda bayram təntənəsi keçirilib.**

Mərasimdə Azərbaycanın və Şimali Kiprin Dövlət himnləri səsləndirilib. Sonra Şimali Kipr Türk Respublikasının Bakıdakı nümayəndəliyinin rəhbəri xanım Ufuk Turganer ölkəmizin beynəlxalq COP29 iqlim konfransına yüksək səviyyəli evsahibliyi etməsi münasibətilə Azərbaycan xalqını və Prezident İlham Əliyevi təbrik edib. O, böyük türk millətinin bir parçası olan Şimali Kiprin müstəqilliyinin qardaş və dost Azərbaycanda qeyd edilməsinin qürurverici olduğunu vurğulayıb. Ölkəsinin Türkiyənin dəstəyi ilə daha da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Xanım Turganer qeyd edib ki, Prezident İlham Əliyevin “Türk dünyasından başqa ailəmiz yoxdur” sözü bizim üçün yol xəritəsidir və bu yolda işləmək böyük vəzifəmiz və məsuliyyətimizdir: “Bu il ərzində parlamentlərimiz arasında dostluq qruplarının yaradılması Prezident İlham Əliyevin irəli sürdüyü yol xəritəsinin ən güclü sübutudur. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq, ticarət, turizm, ali təhsil sahəsində əməkdaşlığın inkişafı üçün nümayəndə heyətlərimiz il ərzində bir çox görüşlər keçirib".

Milli Məclisin Azərbaycan–Şimali Kipr Türk Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Cavanşir Feyziyev deyib: "Kipr Türk Respublikasının quruluş günü kimi qeyd etdiyimiz 1983-cü ilin 15 noyabr günü həmin illərin siyasi çaxnaşmaları içərisində öz milli kimliyini qorumağa və müstəqilliyini qazanmağa çalışan Kipr türklərinin tarixində mühüm dönüş nöqtəsi olub. O gündən sonra qarşılaşdıqları bütün çətinliklərə baxmayaraq, Kıbrıs türkləri öz ata-baba yurdlarında sülh və əmin-amanlığa nail olaraq, müstəqillik yoluna qətiyyətlə davam edirlər".

Deputat bildirib ki, bir vaxtlar soyqırımı və köçkünlük təhlükəsi ilə üzləşmiş Kipr türkləri ortaq dəyərləri və türk kimliyinə dərin bağlılığı ilə hər zaman böyük Türk dünyasının ayrılmaz parçası olublar. Bu baxımdan Azərbaycan Şimali Kipr və Mərkəzi Asiya dövlətləri arasında dialoqun təşviqində, siyasi və iqtisadi boşluqların aradan qaldırılmasında mühüm rol oynamaqdadır. Azərbaycan Respublikası türk dövlətləri arasında iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardımların göstərilməsi ilə türk birliyinin möhkəmlənməsinə hər zaman töhfə verib və bu prinsiplər bu gün də ölkəmizin xarici siyasətində prioritet olaraq qalır.

Cavanşir Feyziyev daha sonra vurğulayıb ki, son illər sürətlə genişlənən ikitərəfli əlaqələrimiz müxtəlif sahələrə, o cümlədən təhsilə mühüm töhfələr verməkdədir. Hazırda 1000-ə yaxın azərbaycanlı tələbə Şimali Kiprin müasir beynəlxalq standartlara cavab verən universitetlərində təhsillərini davam etdirir və eyni zamanda, bir çox azərbaycanlı təhsil işçisi ölkənin akademik müəssisələrində uğurla çalışır. Qarşıdakı illərdə professor-müəllim heyətlərinin mübadiləsi nəzərdə tutulur ki, bu da münasibətlərimizin daha da dərinləşməsinə təkan verəcək.

Rəsmi mərasimdə dövlət və hökumət rəsmiləri, Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndəliklərinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

***XQ***

Türk dünyası

# İpək yolu boyunca 2 itirilmiş şəhər tapılıb

*Orta əsrlərdə orada həyat qaynayır, ticarət inkişaf edirmiş*

**Arxeoloqlar Orta Asiyanın dağlarında min il əvvəl həyat qaynayan iki orta əsr şəhəri aşkar ediblər. Alimlər hər iki yaşayış məntəqəsinin İpək yolunun bir hissəsi olduğunu təsdiqləyiblər.**



Alimlər itirilmiş şəhərlərdən birini ilk dəfə 2011-ci ildə Özbəkistanın şərqindəki yaşıl libasa bürünmüş dağlarda gəzinti zamanı aşkar ediblər. Arxeoloqlar çay yatağı boyu gəzərkən dağlardan birinin zirvəsinə gedən yolda qəbirlər görüblər. Elə buradaca onların qarşısında qeyri-adi kurqanlarla sıralanmış bir yayla uzanırdı.

“İlk baxışda bu kurqanlar heç nə ilə diqqət çəkmirdi. Amma biz etiraf edirik ki, bunlar antropogen yerlərdir, insanların yaşadığı ərazilərdir”, – deyə Özbəkistan Elmlər Akademiyasının Milli Arxeologiya Mərkəzindən Farhod Maksudov qeyd edib.

Bu ərazilərdə torpaq minlərlə saxsı qırıqları ilə dolu idi. Elm adamları sürülərini dağ otlaqlarında otaran köçəri mədəniyyətlərin arxeoloji sübutlarını axtarırdılar, lakin dəniz səviyyəsindən təxminən 2100 metr yüksəklikdə əlverişsiz iqlimdə 12 hektar ərazisi olan bir orta əsr şəhəri tapacaqlarını ağıllarına belə gətirmirdilər.

Bu yerin adı Taşbulaq (Daşbulaq) idi və buradan da qədim yaşayış məskəninin türk tayfalarının yaşayış yeri olduğu bəlli olur. Amma bu hələ başlanğıc idi. 2015-ci ildə qazıntılar zamanı Vaşinqton Universitetinin arxeoloqu Maykl Fraçetti bölgədə yaşayan azsaylı sakinlərdən biri – Taşbulaqdan bir neçə kilometr aralıda yaşayan meşəbəyi ilə rastlaşır. Yerli sakin deyir ki, mən öz həyatımda belə qablar çox görmüşəm. Arxeoloqlar meşəçi işləyən həmin şəxsin fermasına gedirlər və diqqətlə müşahidə aparanda onun evinin kurqan kimi təpədə dayandığını aşkar edirlər.

Məlum olur ki, meşəçi, əslində, orta əsrlərə aid bir qalanın üstündə yaşayır. Arxeoloqlar ətrafı tədqiq edərək daha çox kurqan aşkar edirlər. “Aman Tanrım, bura ki nəhəng bir yerdir”, – deyə Frachetti heyrətlənir.

İkinci şəhər isə Tuqunbulağ adını alır. Arxeoloqlar təxminən 120 hektar ərazini əhatə edən geniş orta əsr yaşayış məntəqəsinin xəritəsini çəkmək üçün uzaqdan zondlama texnologiyasından (lidar) istifadə edirlər. Onların fikrincə, Taşbulak və Tuğunbulaq Böyük İpək Yolu kimi tanınan ticarət yolları şəbəkəsinin bir hissəsi olub.

Mütəxəssislərin fikrincə, Tugünbulağın inkişafının miqyasını və sıxlığını təsdiqləmək üçün əlavə qazıntılara ehtiyac var, lakin şəhərin ərazisinin yarısı üzə çıxsa belə, bu, özü də böyük bir kəşf olacaq.

Çətin təbii şəraitə baxmayaraq, insanlar eramızın VIII–XI əsrlərində Taşbulaq və Tuqunbulaqda yaşamışlar. Amma nə yazıq ki, sonralara yaşayış məntəqələri tərk edilib və zamanın mərhəmətinə buraxılıb. Dağlarda landşaft sürətlə dəyişib və şəhərlərin qalıqları eroziya nəticəsində dağılıb və çöküntülərlə örtülüb. Min il sonra orta əsr şəhərlərindən kurqanlar, yaylalar və silsilələr qalıb.

“Live Science” nəşri yazır: “Bu kəşf həm də ona görə diqqət çəkir ki, İpək Yolunun adi xəritələrində Avrasiya qitəsindən keçən ticarət yolları, əsasən, Orta Asiya dağlarına toxunulmur. Ehtimal olunur ki, əsl ticarət mərkəzləri Səmərqənd və Daşkənd kimi düzənliklərdə yerləşən, münbit torpaqların və suvarma sistemlərinin mövcud olduğu şəhərlər olub”. Deməli, İpək Yolunun üzərində adlarının elmə naməlum olan digər yaşayış məntəqləri olubdur.

***İlqar RÜSTƏMOV***
***XQ***

# “Uzaq sahillərdə” filmi həmin sahillərdə göstərildi



**Sloveniyanın Nova-Qoritsa şəhərində “Uzaq sahillərdə” bədii filminin ilk dəfə sloven dilində nümayişi olub.**

“Mixaylo” ləqəbi ilə tanınan əfsanəvi Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin (1918–1944) vəfatının 80 illiyinə həsr olunmuş tədbir Şempas qəsəbəsinin mədəniyyət mərkəzində keçirilib. Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) dəstəyi ilə tərcümə edilmiş filmin nümayişi Azərbaycan–Sloveniya Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə reallaşıb. Filmi tamaşaçılara AKİ-nin katibi Tahir Tahiroğlu təqdim edib.

Yerli ictimaiyyətin nümayəndələrinin və veteranların iştirakı ilə keçirilən tədbir maraqla qarşılanıb.

**XQ**

ÜST-nin layihəsi

**Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Ofisi milli səhiyyə tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində Bakıda ikigünlük subregional texniki seminar təşkil edib. XQ-yə bu barədə qurumun Bakı ofisindən Azad Qəribov məlumat verib.**

Məlumatda bildirilir ki, “ATscale” layihəsinin dəstəyi ilə həyata keçirilən bu təşəbbüs əlilliyi olan şəxslər üçün köməkçi texnologiyaların keyfiyyət standartlarını artırmaq və Azərbaycanda, Gürcüstanda və Tacikistanda köməkçi texnologiyalara çıxışı yaxşılaşdırmaq məqsədi daşıyır. 28–29 noyabr 2024-cü il tarixlərində keçirilən tədbir, əlilliyi olan şəxsləri yüksək keyfiyyətli köməkçi həllər vasitəsilə dəstəkləmək baxımından əhəmiyyətlidir.

# Səhiyyədə köməkçi texnologiyalara əlçatanlıq



Toplantı zamanı ÜST-nın Azərbaycandakı nümayəndəsi Hande Harmancı vurğulayıb ki, bu və digər köməkçi texnologiyalar sahəsində həyata keçirilən təşəbbüslərlə ÜST Azərbaycan reabilitasiya xidmətlərinə və köməkçi məhsullara ehtiyac duyan şəxslərin funksionallığını yaxşılaşdırmaq, onların cəmiyyətə inteqrasiyasını dəstəkləmək və həyat keyfiyyətlərini artırmağa yönəlmiş səyləri dəstəkləməyi qarşısına məqsəd qoyur.

Seminarda hökumət nümayəndələri, ÜST ekspertləri və bu sahədə tanınmış mentorlar daxil olmaqla, 30-dan çox iştirakçı bir araya gəlib. İki gün ərzində iştirakçılar bir sıra əsas sahələr üzrə intensiv sessiyalarda iştirak ediblər. Bunlar ətraflı məhsul spesifikasiyalarının hazırlanması, beynəlxalq standartlara uyğunluğun təmin edilməsi və keyfiyyət yoxlamalarının aparılması və uyğunluğun təşviqi sahələridir.

İştirakçılar köməkçi məhsulların ən yüksək keyfiyyət və etibarlılıq standartlarına cavab verməsini təmin etmək üçün milli standartların yaradılması və tətbiq edilməsi istiqamətində praktiki təlimlərdən faydalanacaqlar.

Bu seminar köməkçi texnologiyaların əlçatanlığını və effektivliyini artırmaq üçün ÜST-nin üzv dövlətlərə dəstək göstərmək və daha ədalətli səhiyyə təmin etmək sahəsində səylərinin tərkib hissəsidir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Zorakılıq uşaq dünyasına ağır yara vurur

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 11 regionda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzləri uşaqlara qarşı zorakılığın qarşısının alınması mövzusunda silsilə maarifləndirmə tədbirləri keçirib.**

Mərkəzlərdə və təhsil müəssisələrində keçirilən görüşlərdə rayon icra hakimiyyətləri, polis şöbələri, təhsil sektorunun əməkdaşları, müəllimlər, psixoloqlar, məktəblilər, valideynlər və ekspertlər iştirak ediblər.

Uşaqlara qarşı zorakılığın yaranma səbəbləri barədə söz açan psixoloqlar belə azyaşlıların psixologiyasında baş verən mənfi dəyişikliklərin onların sağlam şəxsiyyət kimi formalaşmasına ciddi zərər vurduğunu, onları belə hallardan qorumağın zəruriliyini vurğulayıblar. Müəllimlər çıxışlarında məktəblərdə şagirdlər arasında baş verən zorakılıq halları, onunla mübarizə yolları və valideyn–məktəb əlaqələrinin gücləndirilməsinin vacibliyindən danışıblar.



Mövzu ilə bağlı çıxış edənlər ölkəmizdə uşaqları müdafiə mexanizminin genişləndirilməsi, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər, “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyasına üzv dövlətlərin öhdəlikləri, “4 P yanaşması” (qabaqlayıcı tədbirlər), müdafiə, cinayət təqibi, milli və beynəlxalq əməkdaşlığın təşviqi barədə ətraflı məlumat veriblər.

Yekunda mövzu ilə əlaqəli sosial çarxlar və təqdimatlar nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb, müvafiq tövsiyələr verilib.

***ZH ÜSEYNOVA***
***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
**Azərbaycan Rəssamlıq Akademiyası**
Publik Hüquqi Şəxs
*Aşağıdakı kafedrada vakant vəzifəni tutmaq üçün*
MÜSABİQƏ ELAN EDİR
Dizayn kafedrası – 0,5 ştat, professor – 1 yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq aşağıdakı ünvana göndərilməlidir.
Ünvan- Bakı şəhəri, H.Əliyev prospekti 58.
***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 263 (30667) 29 noyabr 2024-cü il, cümə

# Özbəkistanda 3 qızıl medal

**Özbəkistanın Andijan şəhərində peşəkar qol güləşi liqasının final mərhələsində Azərbaycan idmançıları 3 medal qazanıblar.**




Azər Məhərrəmov (115 kq), Ağaseyid Aslanov (105 kq) və Toğrul Şahlarlı (85 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

Uğur qazanan təmsilçilərimiz Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunacaq final mərhələsində dünyanın ən güclüləri ilə mübarizə aparacaqlar.


# OXUCULARIN NƏZƏRİNƏ!

**“Xalq qəzeti”**

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# UEFA-da yeni qol rekordu

**UEFA Çempionlar Liqasında qol rekordu qeydə alınıb.**



Bu barədə UEFA-nın mətbuat xidməti məlumat yayıb. Liqa mərhələsinin V turunda keçirilən 18 oyunda 67 qol vurulub. Əvvəlki rekord 2000/2001 mövsümünün I turunda qeydə alınıb. Həmin vaxt 16 matçda 63 qol vurulub.

Qeyd edək ki, hazırda turnir cədvəlinə 15 xalla İngiltərənin “Liverpul” klubu başçılıq edir.

***L.QURBANOVA***
***XQ***

**Dünəndən gələn səslər**

# İxtiraçı Zinger Gəncədə olubmu?

## *Şəhərin Cavadxan küçəsində tarixi bir bina var*

**Qırmızı kərpicli binanın üst tərəfinin quruluşu qəribə deyilmi? Elə bu qəribəliklə o başqa tikililərdən dərhal seçilir. İlk baxışda, bəlkə, heç nə başa düşmək olmur. Amma diqqətlə baxanda tikiş maşınının silueti görünür. O tikiş maşınının ki, az qala, bütün dünyanı, o cümlədən Azərbaycanı, eləcə də Gəncəni gəzib. Söhbət 1851-ci ildə ABŞ-nin Nyu-York şəhərində alman əsilli yəhudi ixtiraçı İsaak Zinger və hüquqşünas Edvard Klarkın təşkil etdiyi şirkətin istehsal etdiyi məşhur “Zinger” tikiş maşınlarından gedir.**



...Gəncənin əvvəlcə Yelezavetpolskaya, daha sonra Sabir, indi də Cavadxan adlanan küçəsindəyik. Bu küçə qədim şəhərdə ilk salınan küçələrindən biri hesab edilir. Bəzən “Gəncənin Torqovısı” da deyilən Cavadxan küçəsi Cavad xanın adını daşıyır. Şəhər sakinlərinin və turistlərin sevdiyi bir məkandır. Burada çoxlu



qədim tikililər var. Daha çox diqqət çəkən isə böyük əksəriyyətinin qırmızı kərpicdən hörülmüş binaların ikimərtəbəli olmasıdır. Vaxtilə bu binaların 1-ci mərtəbəsi əsasən ticarət üçün ayrılırdı, yuxarı mərtəbələrdə isə yaşayış mənzilləri yerləşirdi. Buradakı yaşayış mənzillərinin və digər evlərin girişi dalanlardan olurdu. Həmçinin küçədə bir çox xarici firmalar, mağazalar və mehmanxanalar fəaliyyət göstərirdi.

Əvvəllər Quberniya Bankı, Pitoyev Bankir Evi, Usubbəyovun kredit bankı kimi binalar da olub burada. XIX əsrin sonlarından bank kimi tikilən binadan, elə indi də bank kimi istifadə edilir. Həmçinin burada çoxlu sayda mağazalar və idarələr fəaliyyət göstərib. Onların sırasında “Rəfiyev qardaşları”nın ticarət evi, “Babayev qardaşları”nın “Qara” və “Sukyasov qardaşları”nın qastronom mağazası, İosif Rudnikin kauçuk mağazası, Hacı Həsənovun mətbəəsi və dəftərxana malları mağazası, “Zarya” sinematoqrafı və sair binalar var. Cavad xan küçəsində, həmçinin Şeyxzamanovlar nəslinin, Azərbaycan Xalq Cümhuriyyəti qurucularından olan Xasməmmədov qardaşlarının yaşadıqları evlər yerləşir. Küçədə xalçaçılıq, rəssamlıq dərnəkləri fəaliyyət göstərir. Burada ən böyük bərpa işləri 2011–2012-ci illərdə aparılıb.

Yazının əvvəlində təsvir etdiyimiz bina - “Zingerin evi”, “Zingerin emalatxanası”, “Zingerin mağazası” adlandırılan ikimərtəbəli bina da Cavadxan küçəsindədir və biz də ona görə həmin küçəyə gəlmişik. Məqsədimiz İsaak Zingerin həyatından, onun dünyaca məşhur “Zinger” tikiş maşınından geniş söhbət açmaq deyil. Sadəcə, bildirmək istəyirik ki, bu tikiş maşını bir brend idi və ailələrin çoxu onu qiymətli əşya kimi qoruyub saxlayırdı. İndinin özündə “Zinger” maşınının ilk buraxılışlarını axtaran, onu fantastik qiymətə almaq istəyən adamlar var.

Zingerin orijinal dizaynı ümumi məişət istifadəsi üçün ilk praktik tikiş maşını idi. Bu maşınlar Rusiyaya ilk vaxtlar xaricdən gətirilirdi və baha olduğu üçün yalnız varlı ailələr ala bilirdi. Nəhayət, şirkət 1896-cı ildə Rusiyada səhmdar cəmiyyət yaradır və 4 il sonra Podolsk şəhərində “Zinger” tikiş maşını istehsal edən fabrik tikilir. Eyni zamanda müxtəlif şəhərlərdə, o cümlədən Gəncədə nümayəndəliklər açılır. Gəncədəki nümayəndəlik, daha doğrusu ilk kirayə ofisi 1888-ci ildə şəhərin Çavçavadze (indiki M.A.Abbaszadə) küçəsində, Mərkəzi poçt binasının yanında olub. Gəncənin XX



əsrin əvvəllərində iqtisadi yüksəliş dövrünü yaşayan Zinger nümayəndələri “Yelezavetpolskaya” küçəsində qırmızı kərpicdən ikimərtəbəli bina inşa edir və açdığı nümayəndəliyin ilk rəhbəri yəhudi Bari İohann olur. Yeri gəlmişkən, araşdırmışıq ki, tikiş maşınının təsviri olan bina təkcə Gəncədə deyil, Sankt-Peterburqda mərkəzi küçə hesab edilən Neva prospektində də var.

Ötən əsrin əvvəllərində adı çəkilən binada həm də satış dükanı olmuşdur. Sakinlərinin söylədiyinə görə satıcılardan biri 1922-1939-cu illərdə buradakı evlərin birində yaşamış Əli Məmmədov adlı şəxs olub. Uzun müddət “Zinger” tikiş maşınlarından satdığı üçün ona “Zinger Əli” deyirlərmiş. Bu arada bir nəfər “dayanın, bu dəqiqə gedim onun şəklini tapıb gətirim” – deyərək tələsik yaşadığı evə tərəf getdi və heç beş dəqiqə keçməmiş “Zinger Əli”nin şəklini bizə göstərdi. Şəklin üzünü çəkib özünə qaytararaq minnətdarlıq etdik. Onu da öyrəndik ki, bina 1939-cu ildə sovet hökuməti tərəfindən müsadirə olunmasına baxmayaraq Əli Məmmədov həmin küçədə yenə tikiş maşınları satırmış. Lakin bu dəfə Rusiyanın Podolsk fabrikinin tikiş maşınlarını gətirərmiş.

Cavadxan küçəsindəki evlərdə yaşayan sakinlərin bəzisi İsaak Zingerin özünün Gəncədə olmasını, bir müddət həmin evdə yaşadığını iddia edir. Lakin bunun nə dərəcədə dəqiq olduğunu hələlik nə təsdiq, nə də inkar edə bilirik. AMEA-nın Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun şöbə müdiri Samirə Qasımova ilə əlaqə saxladıq. Dedi ki, binanın İsaak Zingerin razılığı ilə bu formada tikilməsi faktı çoxdan öz təsdiqini tapıb. Lakin məşhur ixtiraçının Gəncədə olması haqqında heç bir rəsmi məlumat, mənbə yoxdur.

Zinger nümayəndliyi binasından o qədər də uzaqda olmayan şəhər mətbəəsində uzun illər işləmiş Əli İmanovun da fikirləri maraqlı oldu:

– Əslində, mətbəəmiz yaxınlıqda yerləşsə də, biz belə bir binanın mövcudluğundan xəbərsiz idik. Bilmirdik ki, bu qəribə formalı tikili Zinger şirkətinin inşa etdiyi tarixi binadır. Sadəcə, əhəmiyyət verməmişdik. 12–13 il qabaq küçədə təmir-bərpa işləri apararkən bildik ki, həmin şirkətin burada ofisi, satış mağazası, həm də emalatxanası olub. Bütün hallarda bu bizim tariximizdir və o, daha dərindən öyrənilməlidir.

Ə.İmanov düz deyir. Əslində Cavadxan küçəsi başdan-ayağa tam açılmamış tarixdir və qırmızı kərpicli “Zinger evi” də onun bir zərrəciyidir. Elə Cavadxan küçəsinin özünü açıq səma altında bir muzey alandırmaq olar. Tarixin bütün dövrlərinin nişanəsi var burada. Bu yazıda həmin nişanənin yalnız birindən, ulu nənələrimizin, analarımızın göz bəbəyi kimi qoruduqları, evlərin bəzəyi olan “Zinger” maşınını icad edən şəxsin Gəncədə qoyduğu izdən qısaca söhbət açdıq...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Balıq qalıqları qızılgülə çevrilir

**Türkiyənin Samsun şəhərində hamsi balığının tullantılarından istifadə edilərək, torpaqsız əkinçilik üsulu ilə qızılgül yetişdirilib. Gördüyünüz bu qızılgüllər torpaqda becərilməyib. Bu barədə “On dokuz Mayıs” Universitetinin Aqrar fakültəsinin bağçılıq şöbəsinin uzmanı Mehmet Tütünçü məlumat verib. O, bildirib ki, balıq tullantılarından kənd təsərrüfatında istifadə etmək üçün 2 il öncə işlərə başlanılıb.**

Müəssisələrdən əldə edilən tullantılar kimyəvi proseslərlə amin turşularına çevrilib və bundan istifadə edilərək təbii qızılgüllər yetişdirilib: “Bu, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Şurası (TUBİTAK) tərəfindən dəstəklənən bir layihədir. Hamsi balığının tullantılarından hazırladığımız məhsulu Hindistan qozu torfunda yetişdirilən qızılgüllərə də tətbiq edərək onların inkişaf prosesini öyrənirik. Artıq layihənin üçüncü ilindəyik. Hər il qızılgüllər yığılır və yetişdirdiyimiz məhsullar analiz edilir”.

Qeyd edək ki, hamsi 400 metrə qədər dərinlikdə subtropik dənizlərdə yaşayan duzlu su balığıdır. Bu balıqlara daha çox



Qara, Azov, Mərmərə, Aralıq dənizlərində və Peru sahillərində rast gəlinir.

***S.FİDAN***
***XQ***

# Abşeronda və dağlarda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 29-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı ehtimalı var.**



Axşama doğru tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 7-9°, gündüz 9-11° isti olacaq.Atmosfer təzyiqi 765 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-85 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək.

Lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 8-12° isti, dağlarda gecə 3-8° şaxta, yüksək dağlıq ərazilərdə 8-13° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.ü

***Q.QASIMOV***
***XQ***

***✓ 2014-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi tərəfindən müddətdən artıq hərbi qulluqçu Əliyev Qələndər Şaban oğlunun adına verilmiş AD seriyalı ,0024954 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Hacı Qüdrət Piriyev və Səməd Məlikzadə Bakı Dövlət Universitetinin dosenti

**FAZİL VAHİDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

ADPU-nun Biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları kafedranın baş müəllimi Dilşad Sadıqovaya anası

**GÜLQƏLƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Respublika Qan Bankının rəhbərliyi və kollektivi Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Sərdar Əsədova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2743
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00